**Avropa İttifaqı Azərbaycanla tərəfdaşlığa böyük önəm verir**



Bax 2

**Birinci vitse-prezident Mehriban Əliyeva yunan-Roma güləşi üzrə milli komandamızın üzvlərini təbrik edib**



Bax 2

**"Parlament seçkiləri ölkəmizdə demokratiyanın yeni bir təzahürüdür"**



Bax4




"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 030 (5995) 14 fevral 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Hikmət Hacıyev: Harlem Dezirin hadisələrə tələm-tələsik reaksiyası onun Azərbaycana olan aşkar qərəzini göstərir

Bax 4



Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ATƏT-in media azadlığı üzrə nümayəndəsi Harlem Dezirin Azərbaycanda guya jurnalistlərə qarşı zorakılığın baş verməsi ilə bağlı bəyanatına münasibət bildirib. Hikmət Hacıyev AZƏRTAC-a müsahibəsində Harlem Dezirin davamlı şəkildə qatı...

## "ASAN xidmət" yeniləşən Azərbaycanın yeni simasıdır





Bax 3

Prezident İlham Əliyev: "Xalqımıza xas olan bütün müsbət əlamətlər, eyni zamanda, müasirlik, texnologiyalar, innovasiyalar "ASAN xidmət"də özünü büruzə verir"

## MSK bu seçki dairələrində nəticələri ləğv etdi



Mərkəzi Seçki Komissiyası (MSK) dünən keçirilən iclasında bir sıra seçki dairələri ilə bağlı daxil olan müraciətlərə baxıb. SİA-nın məlumatına görə, 91 saylı Ucar, 125 saylı Zəngilan-Qubadlı və 60 saylı Salyan-Neftçala, 50 saylı Abşeron-Qobustan, 72 saylı Yardımlı-Masallı, 95 saylı Tərtər, 42 saylı Sumqayıt ikinci, 14 saylı Xəzər, 15 saylı Yasamal birinci, 10 saylı Binəqədi üçüncü, 28 saylı Sabunçu üçüncü, 79 saylı İmişli, 45 saylı Abşeron, 109 saylı Balakən, 67 saylı...

Bax 4

## Azərbaycan Televiziyası 64 yaşını qeyd edir

Bu gün Azərbaycan televiziyasının yaranma günüdür. Şərqdə ilk dəfə yaradılan və milyonların seyrçisi olan Azərbaycan Televiziyası radionun yaranmasından 30 il sonra - 1956-cı il fevralın 14-də fəaliyyətə başlayıb. Bu, Stalin rejimindən...





Bax 5

## ATƏT Attarın akkreditasiyasını niyə ləğv etdi?!



Xəbər verdiyimiz kimi, Mərkəzi Seçki Komissiyasının bu gün keçirilən iclasında ilk olaraq ATƏT DTİHB-nin 9 fevral parlament seçkiləri ilə əlaqədar seçki müşahidə missiyasının müraciətinə baxılıb. Qeyd olunub ki, ATƏT öz missiya rəhbəri müşahidəçilərdən biri olan...

Bax 6

## "Çelsi" Hakim Zieşi 44 milyon avroya transfer etdi

Bax 16



"Ayaks" futbolçusu Hakim Zieşin "Çelsi"yə transferini təsdiqləyib. Bu barədə Niderland təmsilçisi rəsmi saytı vasitəsi ilə məlumat yayıb. 26 yaşlı hücumçunun bu mövsümün sonadək Niderland klubunda qalacağı, iyul ayından "zadəganlar"a qoşulacağı bildirilib. "Çelsi"nin bu transfer üçün "Ayaks"a 44 milyon avro...

**Siyavuş Novruzovdan seçkidən sonra ilk addım**



Bax 4

**"Bu il Azərbaycanda idxal-karantin məntəqələri qurulacaq"**



Bax 10

**Azərbaycan dünyanın ən populyarlaşan 20 turist ölkəsindən biridir**



Bax 11

# Avropa İttifaqı Azərbaycanla tərəfdaşlığa böyük önəm verir

*Prezident İlham Əliyev Avropa İttifaqının xüsusi nümayəndəsinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesi müzakirə edildi, Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlığın əhəmiyyətinə toxunuldu, bu yaxınlarda Bakıda keçiriləcək Cənub Qaz Dəhlizi Məşvərət Şurasının növbəti toplantısında Avropa İttifaqının yüksək səviyyədə iştirak etmək niyyətində olmasının önəmi vurğulandı və əlaqələrimizin inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Məşhur amerikalı yazıçı ADA Universitetinin fəxri doktoru adına layiq görülüb






***Fevralın 13-də ADA Universitetinin rektoru, səfir Hafiz Paşayevin təklifi və universitet Senatının qərarına əsasən, tanınmış amerikalı yazıçı və analitik Tomas Qolts Azərbaycan və Xəzəryanı bölgə üzrə apardığı tədqiqatlarına, bu sahədəki diqqətəlayiq nəşrlərinə, Azərbaycan və ABŞ xalqları arasında qarşılıqlı anlaşmanın möhkəmlənməsinə verdiyi mühüm töhfələrinə görə ADA Universitetinin fəxri doktoru adına layiq görülüb.***

AZƏRTAC xəbər verir ki, ADA Universitetində keçirilən təqdimetmə mərasimində rektor Hafiz Paşayev fəxri doktor diplomunu qonağa təqdim edib. Rektor Azərbaycan ictimaiyyətinin T.Qoltsun ölkələrimiz arasındakı qarşılıqlı anlaşmanın inkişafına verdiyi töhfəni yüksək qiymətləndirdiyini bildirib.

Daha sonra Tomas Qolts çıxış edərək, ADA Universiteti tərəfindən verilən yüksək qiymətə və fəxri ada görə minnətdarlığını bildirib. O, Azərbaycanla bağlı xatirələrini bölüşüb, ölkənin müstəqilliyə gedən yolda çox çətin dövrdən keçdiyini nəzərə çatdırıb və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı şahidi olduğu hadisələrdən bəhs edib. T.Qolts müstəqil Azərbaycanın daha böyük uğurlara imza atacağına əminliyini bildirib.

Mərasim çərçivəsində qonaqlar Tomas Qoltsun nümayiş etdirilən kitabları ilə tanış olub, onun Azərbaycanla bağlı xatirələrindən bəhs edən videonu izləyiblər.

Qeyd edək ki, Tomas Qolts müstəqil Azərbaycan və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yazılmış ilk kitablardan olan "Azərbaycan gündəliyi"nin müəllifidir. Onun "Washington Post", "National Interest" və digər nüfuzlu kütləvi informasiya vasitələrində dərc etdirdiyi məqalələr Azərbaycanın dünya ictimaiyyətinə tanıdılması və Xocalı faciəsi ilə bağlı həqiqətlərin beynəlxalq mediada işıqlandırılması işinə töhfə verib.

# Birinci vitse-prezident Mehriban Əliyeva yunan-Roma güləşi üzrə milli komandamızın üzvlərini təbrik edib



***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva İtaliyanın paytaxtı Romada keçirilən Avropa çempionatında 2 qızıl və 4 bürünc medal qazanan yunan-Roma güləşi üzrə milli komandamızın üzvlərini rəsmi "Instagram" səhifəsində təbrik edib.***

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezidentin bununla bağlı paylaşımında deyilir: "İdman sahəsində növbəti böyük uğurumuz! İtaliyanın paytaxtı Romada keçirilən Avropa çempionatında yunan-Roma güləşi üzrə Azərbaycan millisi tarixində ilk dəfə 6 medal qazanaraq komanda hesabında ikinci yerdə qərarlaşıb. Bu möhtəşəm qələbə sevincini Azərbaycan xalqına yaşadan idmançılarımızı - qızıl medal sahibləri Sənan Süleymanovu və Rafiq Hüseynovu, bürünc medal sahibləri Eldəniz Əzizlini, Murad Bazarovu, Ülvi Qənizadəni və İslam Abbasovu və onların məşqçilərini səmimi-qəlbdən təbrik edir, onlara yeni-yeni nailiyyət və qələbələr arzulayıram".

## *Rəsmi xronika*

Prezident İlham Əliyev "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020-2025-ci illər üçün Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyəti ilə bağlı bəzi məsələlər haqqında" 2016-cı il 16 noyabr tarixli 1113 nömrəli və "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bəzi məsələlər haqqında" 2018-ci il 7 fevral tarixli 1819 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Hökuməti ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında Azərbaycan-AYİB Əməkdaşlıq Hesabı ilə əlaqədar Əməkdaşlıq Sazişinin təsdiq edilməsi haqqında Fərman imzalayıb.

# Azərbaycan ilə Moldova arasında əməkdaşlığın inkişafı məsələləri müzakirə edilib

***Moldova Respublikasının Prezidenti İqor Dodon Azərbaycanın bu ölkədəki səfiri Qüdsi Osmanovu qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə Moldova-Azərbaycan münasibətlərinin cari vəziyyəti nəzərdən keçirilib. Moldova dövlətinin başçısı bir çox sosial layihələrin reallaşmasına göstərdiyi əhəmiyyətli yardıma görə Azərbaycan rəhbərliyinə təşəkkür edib. O xatırladıb ki, bu il Çadır-Lunqa şəhərində Heydər Əliyev Fondunun dəstəyi ilə Mədəniyyət və Təhsil Mərkəzi açılacaq. Mərkəzin tikintisi barədə razılıq Moldova Prezidentinin 2017-ci ildə Bakıya rəsmi səfəri zamanı Prezident İlham Əliyevlə şəxsi razılaşma əsasında əldə olunub.***



Bundan əlavə, görüşdə 2012-ci ildən bir yerə toplaşmayan ticari-iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın dördüncü iclasının keçirilməsinin əhəmiyyəti göstərilib. Bildirilib ki, yeni iclas Azərbaycanın işgüzar mühiti ilə qarşılıqlı fəaliyyətə güclü təkan verəcək.

# “ASAN xidmət” yeniləşən Azərbaycanın yeni simasıdır

*Prezident İlham Əliyev: “Xalqımıza xas olan bütün müsbət əlamətlər, eyni zamanda, müasirlik, texnologiyalar, innovasiyalar “ASAN xidmət”də özünü büruzə verir”*



***Müasir dövrümüzdə dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində mühüm işlər görülüb. Bu məqsədlə müvafiq hüquqi baza formalaşdırılıb. Əksər dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin edilib. Bu xidmətlər mümkün korrupsiya hallarını aradan qaldırır və vətəndaşları dövlət xidmətlərinə yaxınlaşdırır. Prezident İlham Əliyevin Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi yaradılıb və onun tabeliyində “ASAN xidmət” mərkəzləri xidmət göstərir ki, bu da, qısa müddətdə özünü doğruldub.***

Bu gün Azərbaycanın müxtəlif məkanlarında “ASAN xidmət” mərkəzləri xidmət göstərir. Sayca 17-ci “ASAN xidmət” mərkəzi Kürdəmirdə istifadəyə verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kürdəmirdə “ASAN xidmət” mərkəzinin açılışında çıxışı zamanı vurğuladığı kimi, “ASAN xidmət” mərkəzləri ölkəmizdə çox ciddi müsbət dəyişikliklərə yol açdı: “Bu, bizim niyyətimizin, siyasətimizin təzahürü idi. Amma birinci mərkəzlər açılan zaman insanlara elə gəlirdi ki, bu, vətəndaşların rahatlığı üçün sadəcə, bir layihədir, xidmət layihəsidir. O vaxt bir çoxları bəlkə də dərk etmirdilər ki, bu, bir layihə deyil, bu, siyasətdir, hərəkatdır, bu, niyyətdir”.

### “ASAN XİDMƏT” MƏRKƏZLƏRİNİN FƏALİYYƏTİ VƏ BU MƏRKƏZLƏRDƏ HÖKM SÜRƏN NİZAM-İNTİZAM, MƏDƏNİYYƏT, DÜRÜSTLÜK HƏM AZƏRBAYCAN CƏMİYYƏTİNDƏ BÖYÜK YENİLİK VƏ İCTİMAİ XİDMƏTLƏR SAHƏSİNDƏ BİR İNQİLAB İDİ”

Müasir dövrümüzdə “ASAN xidmət” dünyaya nümunə olan modeldir. Azərbaycan Prezidenti İlham Əliyevin dövlət idarəçiliyinin təkmilləşdirilməsi sahəsində həyata keçirdiyi islahatların tərkib hissəsi olan “ASAN xidmət” dövlət və özəl xidmətlərin vahid məkandan innovasiyaların tətbiqi ilə vətəndaşlara çatdırılması sahəsində uğurlara səbəb olub. Fəaliyyətə başladığı vaxtdan “ASAN xidmət” mərkəzlərinə müraciətlər çoxalıb və onun vətəndaşlar tərəfindən bəyənilmə əmsalı daha da yüksəlir. Bu, 2019-cu ildə 99.3 faiz təşkil edib. Yeni istifadəyə verilən bu mərkəzdə yeni texnologiyalar və innovasiyalar tətbiq olunur. Bu, innovasiya, yeni fikrin və yeni yanaşmanın yaranması Azərbaycanın inkişafının göstəricisidir. Kürdəmirdə yeni istifadəyə verilən “Asan xidmət” mərkəzində əməkdaşların sayı 259, könüllülərin sayı isə 45 nəfər nəzərdə tutulur. Kompleksdəki regional “ASAN xidmət” mərkəzində müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən, ümumilikdə, 320 xidmət həyata keçiriləcək. Bu mərkəzdə Kürdəmir, Hacıqabul, Ağsu, Göyçay, Ucar və Zərdab rayonlarında qeydiyyatda olan 540 min 400-dən çox sakinlə yanaşı, ölkə üzrə ərazi məhdudiyyəti olmadan bütün vətəndaşlara xidmət göstəriləcək. “ASAN xidmət” mərkəzlərinin fəaliyyəti və bu mərkəzlərdə hökm sürən nizam-intizam, mədəniyyət, dürüstlük həm Azərbaycan cəmiyyətində böyük yenilik və ictimai xidmətlər sahəsində bir inqilab idi, eyni zamanda, bu, mərkəzlərə müraciət edən vətəndaşlar üçün də gözlənilməz bir hal idi” - deyən Prezident İlham Əliyev ictimai xidmətlərin ölkəmizdə həmişə problemli bir sahə olduğunu bildirib: “İnsanlar məcbur olub günləri, həftələri itirərkən, bu və ya digər dövlət qurumuna müraciət edərkən öz haqlı tələbini təmin etmək üçün əziyyət çəkirdilər. Süründürməçilik, rüşvətxorluq, korrupsiya, mədəniyyətsizlik əfsuslar ki, ictimai xidmətlər sektoruna xas olan əlamətlər idi. İndi isə “ASAN xidmət” mərkəzlərində bunların biri də yoxdur. Eyni zamanda, “ASAN xidmət” mərkəzlərində yaranmış bu gözəl ab-hava ölkəmizin digər sahələrinə də müsbət təsir göstərir”.




### “ASAN XİDMƏT” MƏRKƏZLƏRİNİN FƏALİYYƏTƏ BAŞLAMASI, ƏSLİNDƏ, KÖNÜLLÜLƏR HƏRƏKATINA DA TƏKAN VERMİŞDİR”

“ASAN xidmət” mərkəzləri yerləşən regionlardakı Heydər Əliyev mərkəzlərində ASAN könüllüləri öz fəallığı ilə seçilirlər. “ASAN xidmət” mərkəzlərinin fəaliyyətə başlaması, əslində, Könüllülər hərəkatına da təkan vermişdir” - deyən dövlət başçısı bildirib ki, ancaq ondan sonra Könüllülər hərəkatı və könüllülərin fəaliyyəti çox geniş vüsət almışdır: “Ölkəmizdə keçirilmiş mötəbər beynəlxalq yarışlarda, o cümlədən birinci Avropa Oyunlarında, İslam Həmrəyliyi Oyunlarında könüllülər çox fəal rol oynamışlar və bu oyunların uğurla keçirilməsində böyük dərəcədə öz xidmətlərini göstərmişlər. Mən görürəm ki, indi Könüllülər hərəkatı və könüllülərin fəaliyyəti daha genişmiqyaslıdır. Həm vətənpərvərlik, ekoloji tarazlıq mövzularında keçirilən tədbirlərdə, həm də incəsənət, mədəniyyət və digər sahələrdə könüllülər çox fəaldırlar. Eyni zamanda, ölkəmizin beynəlxalq əlaqələrinin möhkəmlənməsində də könüllülərin fəaliyyəti çox önəmlidir.”

Əlbəttə ki, dövlət başçısının dəstəyi və təşəbbüsü ilə Azərbaycanda könüllülük fəaliyyəti geniş şəkildə yayılıb. 15 nəfərlə fəaliyyətə başlayan “ASAN könüllülər” hərəkatının artıq 22 mindən çox məzun könüllüsü var. “ASAN xidmət” mərkəzlərində könüllülük fəaliyyəti iki mərhələdən ibarətdir. Birinci mərhələdə könüllülər müxtəlif sənədləşmə prosedurlarında, dövri rəy sorğularında, xidmətyönümlü təlimlərdə və mərkəzlərin ümumi fəaliyyətində yaxından iştirak edirlər. Növbəti mərhələdə isə onlar artıq öz ixtisaslarına uyğun olaraq müxtəlif təcrübələrə cəlb olunurlar. Könüllü gənclər xalqımıza, millətimizə heç bir maddi maraq güdmədən xidmət edir və xeyirxah əməlləri ilə diqqəti cəlb edirlər. Könüllülər üzərlərinə düşən vəzifəni, məsuliyyəti dərk edir və sosial, ictimai, mədəni, ekoloji tədbirlərində daha yaxından iştirak edirlər. Belə ki, bu günə qədər 8 mindən çox ASAN könüllüsü 5 mindən çox layihədə iştirak edib. O layihələrin əsas məqsədi Azərbaycançılıq ideologiyasının, Ulu Öndərin siyasi kursunun öyrədilməsi və öyrənilməsidir. Bundan başqa, mərkəzlərdə könüllülər vaxtlarını səmərəli keçirmək üçün digər təlimlərdə iştirak edirlər. Genişmiqyaslı layihələrdən “Hərbiyyə” hərbi-vətənpərvərlik düşərgəsi, “Əsgərə məktub” kimi layihələr gənclərin vətənpərvərlik ruhunun artmasına xidmət edir.

### “BİZİM STRATEJİ İNKİŞAF YOLUMUZ VAR - MİLLİ DƏYƏRLƏRİN QORUNMASI, MÜSTƏQİLLİYİN MÖHKƏMLƏNDİRİLMƏSİ...”

Bu gün könüllü gənclər “Əsgərə məktub”, “ASAN məktub”la vətənpərvərlik hisslərin daha da artmasını xidmət edən layihələrlə yanaşı, “Yaşıl ASAN”la təbiətin keşiyində dayanıblar. Könüllülər cəmiyyətimizin, dövlətimizin inkişafında böyük rol oynayırlar. Vətənə olan sevgisini yüksək tutur, azərbaycanlı adını layiqincə daşımağa çalışırlar. “Ölkə maraqlarını müdafiə etmək üçün bir neçə önəmli amil lazımdır” - deyən Cənab Prezident bildirib ki, ilk növbədə, Vətən sevgisi, Vətənə və milli köklərə bağlılıq olmalıdır. Ölkəmizin gələcək taleyinin müasir, bilikli, istedadlı gənclərin əlində olacağını söyləyib: “... biz xalqımıza xas olan dəyərləri nəsildən-nəslə ötürməliyik, onları itirməməliyik, qorumalıyıq. İndiki şəraitdə bunu etmək o qədər də asan deyil. Çünki indi dünya qloballaşır, informasiya heç bir sərhəd tanımır, - bu da müsbət haldır, - amma bununla bərabər dezinformasiya da heç bir sərhəd tanımır, feyk xəbər anlayışı 5-6 il bundan əvvəl mövcud deyildi. İndi bu, həqiqətdir və bunu etiraf edənlər dünyanın aparıcı ölkələrinin dövlət başçılarıdır. Onlar da bundan əziyyət çəkirlər. Media bir tərəfdən artıq bütün sərhədləri aşaraq hər bir ölkəyə qədəm qoyur və bu, müsbət haldır. Bildiyiniz kimi, Azərbaycanda da media azadlığı var, internet azaddır, heç bir senzura yoxdur. Digər tərəfdən, informasiya təxribatları, yalan məlumat, şər-böhtanla dolu məlumat da sərhədləri aşır. Biz buna hazır olmalıyıq, xüsusilə gənclər”.

*Nəzakət ƏLƏDDİNQIZI*

# “Parlament seçkiləri ölkəmizdə demokratiyanın yeni bir təzahürüdür”



***“Azərbaycanda fevralın 9-da keçirilən parlament seçkiləri ölkəmizdə demokratiyanın yeni bir təzahürü, demokratiya istiqamətində ölkəmizin daha da irəliyə doğru əhəmiyyətli bir addım atmasının ifadəsidir”. SİA-nın verdiyi məlumata görə, bunu Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini-İcra katibi Əli Əhmədov deyib.***

Əli Əhmədov bildirib ki, Azərbaycanda heç zaman seçkilərdə 1300-dən çox namizəd iştirak etməyib: “Bu, rekord bir göstəricidir. Bu, bir tərəfdən Azərbaycanda seçkilərin açıq və şəffaf keçməsinə vətəndaşların əvvəlcədən inamının ifadəsi idi, digər bir tərəfdən isə Azərbaycanda demokratik ənənələrin oturuşmasının çox vacib göstəricilərindən biridir”.

Baş Nazirin müavini vurğulayıb ki, seçkilər beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirildi: “Beynəlxalq təşkilatlar Azərbaycanda keçirilən bu seçkilərə böyük maraq göstərdi. Təsəvvür edin, əhalinin sayına görə Azərbaycan o qədər də böyük ölkə deyil, cəmisi 125 dairədə seçkilər keçirilir, 125 deputat mandatı uğrunda mübarizə aparılırdı. Ancaq digər ölkələrlə müqayisədə daha az deputat yerləri uğrunda aparılan mübarizəni izləmək üçün 900-ə yaxın beynəlxalq müşahidəçi gəlmişdi.

Bunun özü də beynəlxalq aləmdə Azərbaycana olan marağın bir ifadəsidir. Bütün bunların hamısını ümumiləşdirərək deyərdim ki, parlament seçkiləri Azərbaycanın siyasi tarixinin əhəmiyyətli bir hissəsini təşkil edir, ölkəmizin demokratiya yolunda irəliləyişinin əhəmiyyətli bir təsdiqi kimi özünü büruzə verir.

Bu seçkilər, eyni zamanda Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətə insanlarımızın inamını ifadə edir, dövlət başçısına olan etibarın yeni bir ifadəsi kimi özünü göstərir”.trend

# Siyavuş Novruzovdan seçkidən sonra ilk addım



Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov 2020-ci ilin fevralın 9-da ölkədə keçirilmiş növbədənkənar parlament seçkilərində növbəti dəfə qalib gəlməsi münasibətilə bu gün Fəxri Xiyabanda partiyanın qurucusu, Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edərək məzarı önünə əklil qoyub.

Ziyarət etdikdən sonra SƏS TV-yə açıqlama verən Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini Siyavuş Novruzov bunları deyib: “Ümumiyyətlə nəinki mən, bütün Azərbaycan xalqı Ümummilli Lider Heydər Əliyevə minnətdardır. Təbii ki, bizlər də Fəxri Xiyabana gələrək Ulu Öndərə öz minnətdarlığımızı bildiririk. Mən növbəti dəfə Naxçıvan Muxtar Respublikasından Milli Məclisə deputat seçilmişəm. Ziyarət etməkdə əsas məqsədim Ümummilli Liderdən xeyir-dua almaq və daha sonra öz fəaliyyətimlə məşğul olmaqdır. Mənim həyatımda, fəaliyyətimdə ömrü boyu Heydər Əliyev həmişə böyük rol oynayıb. Təbii ki, bundan sonra da Ulu Öndər Heydər Əliyevin siyasəti və cənab Prezident İlham Əliyevin siyasəti davam edəcək. Seçicilər bizlərə Heydər Əliyev yoluna, siyasətinə görə səs veriblər. Mən Ümummilli Liderin hesabına səs qazanmışam. Ona görə də Heydər Əliyevin məzarını ziyarət etməmək mənim üçün qəbulolunmazdır. Mən hər bir xeyir işimdə Fəxri Xiyabana gələrək Ulu Öndərin xeyir-duasını alıram”.

# Hikmət Hacıyev: Harlem Dezirin hadisələrə tələm-tələsik reaksiyası onun Azərbaycana olan aşkar qərəzini göstərir



***Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ATƏT-in media azadlığı üzrə nümayəndəsi Harlem Dezirin Azərbaycanda guya jurnalistlərə qarşı zorakılığın baş verməsi ilə bağlı bəyanatına münasibət bildirib. Hikmət Hacıyev AZƏRTAC-a müsahibəsində Harlem Dezirin davamlı şəkildə qatı anti-Azərbaycan mövqeyi nümayiş etdirən bir şəxs olduğunu, Azərbaycanda baş verən hadisələri qəsdən şişirtdiyini və siyasiləşdirdiyini deyib. Prezidentin köməkçisi vurğulayıb ki, H.Dezirin məsələləri öyrənmədən, tələm-tələsik reaksiyası onun Azərbaycana olan aşkar qərəzini göstərir.***

“Lakin “insan haqları uğrunda cəfakeş” H.Dezir nədənsə Ermənistanda insan hüquqlarının pozulması, təqib və həbslərə göz yumur. Ermənistanın baş naziri öz siyasi rəqiblərini bir-bir həbsə atır, onları “asfalta uzatmaqla” hədələyir. Ermənistanda jurnalistlər həbs və təqib olunur. Keçən il müxalif siyasətçi və jurnalist Mher Yeqizaryan həbsxanada etdiyi aclığın ardından vəfat etdi. Lap bu yaxınlarda “VETO” hərəkatından olan müxalif bloqqer Narek Malyan qanunsuz silah saxlanması ittihamı ilə saxlanılıb. Satik Seyranyan, Armen Tavadyan və digər şəxslərlə bağlı vəziyyəti qeyd etmək olar. Lakin biz H.Dezirin bu məsələlərə dair heç bir reaksiyasının şahidi olmuruq. Görünür, H.Dezir insan hüquqlarına münasibətini siyasi coğrafiyaya görə müəyyən edir. Prosedurlara uyğun olaraq bu ilin iyun ayında ATƏT-də onun mandatının uzadılıb-uzadılmaması məsələsinə baxılacaq. H.Dezirin vəzifəsindən sui-istifadə etməsi, məsələləri lüzumsuz yerə həddsiz dərəcədə şişirtməsi və siyasiləşdirməsi nəzərə alınaraq, bu gedişlə onun mandatının uzadılması ilə bağlı Azərbaycan tərəfinin fərqli fikri olacaq”, - deyə Hikmət Hacıyev qeyd edib.

# Xarici İşlər Nazirliyində Avropa İttifaqının xüsusi nümayəndəsi ilə görüş olub



Fevralın 13-də Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, T.Klaar Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul olunduğunu və görüş zamanı faydalı müzakirələrin aparıldığını bildirib.

Nazir Elmar Məmmədyarov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesinin hazırkı vəziyyəti, o cümlədən cari il yanvarın 28-30-da Cenevrədə iki ölkənin Xarici İşlər nazirlərinin ATƏT-in Minsk qrupunun həmsədrləri və qurumun fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin iştirakı ilə baş tutmuş görüşü, aparılmış müzakirələr haqqında qarşı tərəfi məlumatlandırıb. Habelə, nazir Elmar Məmmədyarov münaqişənin Helsinki Yekun Aktının prinsipləri əsasında tezliklə həllinin substantiv aspektləri üzrə ətraflı müzakirələrin əhəmiyyətini vurğulayıb. Həmçinin, görüş zamanı Azərbaycan ilə Avropa İttifaqı əməkdaşlığının gündəliyində duran müxtəlif məsələlər, eləcə də qarşılıqlı maraq doğuran digər mövzular ətrafında fikir mübadiləsi aparılıb.

# MSK bu seçki dairələrində nəticələri ləğv etdi



Mərkəzi Seçki Komissiyası (MSK) dünən keçirilən iclasında bir sıra seçki dairələri ilə bağlı daxil olan müraciətlərə baxıb. SİA-nın məlumatına görə, 91 saylı Ucar, 125 saylı Zəngilan-Qubadlı və 60 saylı Salyan-Neftçala, 50 saylı Abşeron-Qobustan, 72 saylı Yardımlı-Masallı, 95 saylı Tərtər, 42 saylı Sumqayıt ikinci, 14 saylı Xəzər, 15 saylı Yasamal birinci, 10 saylı Binəqədi üçüncü, 28 saylı Sabunçu üçüncü, 79 saylı İmişli, 45 saylı Abşeron, 109 saylı Balakən, 67 saylı Cəlilabad seçki dairələri üzrə müraciətlərə baxılıb. Müzakirələrdən sonra müraciətlərin Dairə Seçki Komissiyalarına göndərilməsinə qərar verilib.

İclasda həmçinin 35 saylı Xətai III Seçki Dairəsi üzrə, 33 saylı Xətai birinci seçki dairəsi üzrə, 74 saylı Lənkəran seçki dairəsi üzrə və 80 saylı İmişli-Beyləqan seçki dairəsi üzrə parlament seçkilərinin nəticələri ləğv edilib.

# Azərbaycanda nikbin əhval-ruhiyyə hökm sürür

***Ötən bazar günü Azərbaycanda ölkənin qanunvericilik orqanına keçirilən növbədənkənar seçkilər Belçika KİV-lərində geniş işıqlandırılıb.***



EURACTIV The Capitals 2020 Lookahead Login / Register Events EURACTIV Network

Agrifood Digital Economy & Jobs Energy & Environment Global Europe Health Politics

Home / News / Global Europe / Europe's East / Azerbaijan / In snap parliamentary elections, Azeris put hopes in young candidates

In snap parliamentary elections, Azeris put hopes in young candidates

By Georgi Gotev reporting from Baku | EURACTIV.com Feb 10, 2020

Supporters

CASPIAN INVEST LTD

AZƏRTAC xəbər verir ki, Avropa İttifaqının böyük oxucu auditoriyası olan “Euractive” nəşri Bakıda səfərdə olmuş jurnalist Georgi Qotevin “Azərbaycanlılar parlamentdə gənc namizədlərə ümid bəsləyirlər” sərlövhəli məqaləsini dərc edib (bax: https://www.euractiv.com/-section/azerbaijan/news/in-snap-parliamentary-elections-azeris-put-hopes-in-young-candidates/ ).

Məqalədə deyilir ki, seçkilərdə Yeni Azərbaycan Partiyası inamlı qələbə qazanıb. Parlamentə Qərb universitetlərində təhsil almış, xarici dilləri bilən çoxlu namizəd seçilib. Onlar Prezident İlham Əliyevin təşəbbüsü ilə aparılan islahatların hərəkətverici qüvvəsinə çevriləcəklər. Qotev yazır: “Bu gün kimlərinsə barəsində “gənc və savadlı” deyilirsə, onda Qərbin nüfuzlu universitetlərində təhsil almış, həyata mütərəqqi baxışları olan insanlar başa düşülür”. Məqalədə deputatlığa rekord sayda namizəd olduğu qeyd edilir. Müəllifin fikrincə, bu, cəmiyyətin seçkilərə etimad göstərdiyini göstərir. Müəllif vurğulayır ki, Azərbaycan inamla demokratiya yolu ilə addımlayır, hərçənd demokratiyanın özü hətta Qərb ölkələrində idealdan uzaqdır.

Müəllif sonda yazır: “Bütövlükdə ölkədə - restoranlarda və barlarda, getdiyim hər yerdə nikbin əhval-ruhiyyə hökm sürürdü”.

# Azərbaycan Televiziyası 64 yaşını qeyd edir



**Bu gün Azərbaycan televiziyasının yaranma günüdür. Şərqdə ilk dəfə yaradılan və milyonların seyrçisi olan Azərbaycan Televiziyası radionun yaranmasından 30 il sonra - 1956-cı il fevralın 14-də fəaliyyətə başlayıb. Bu, Stalin rejimindən qurtuluş tapan sovet cəmiyyətində aşkarlığın rüşeymlərinin yenicə yaranan dövrünə təsadüf edirdi. Televiziyanın yaranması Azərbaycan xalqının siyasi və mədəni həyatında böyük yenilik kimi yadda qalıb. Teleradio xalqımızın siyasi dünyagörüşünün formalaşmasına, mənəvi-mədəni həyatının yüksəlməsinə xidmət edərək, onun ictimai-siyasi ideyalarının, yüksək əxlaqi dəyərlərinin, arzu və istəklərinin ifadəçisinə çevrilib.**

Azərbaycan televiziyasının bütün proqramları milli-mənəvi dəyərləri, milli adət və ənənələri, mədəniyyət və incəsənətin bütün rəngarəngliyini özündə əks etdirir. Müxtəlif məzmunlu proqramlar hazırlayarkən, cəmiyyətdəki siyasi əqidələri, dini baxışları, ictimai fikir və rəyin müxtəlif cərəyanlarını, habelə, ölkə vətəndaşlarının hüquq bərabərliyini nəzərə alır. Geniş dinləyici auditoriyasına malik Azərbaycan televiziyası qanunvericiliyə əsaslanaraq, informasiyanın tərəfsizliyi, qərəzsizliyi və doğru-dürüstlüyünü əsas tutur. Yeni dolğun xəbərlərlə xalqımızı məlumatlandırır, hər hansı hadisəyə qərəzli, öz şəxsi mənafeyi baxımından yanaşmır.

**Televiziyanın yaranması xalqımızın siyasi və mədəni həyatında böyük yenilik kimi yadda qalıb**

## "GÖSTƏRİR BAKI!" TELEVİZİYANIN TARİXİNƏ YAZILAN İLK MƏFHUM

1956-cı ilin fevralında fəaliyyətə başlayan Azərbaycan televiziyası ilk veriliş günü, ekranda sonradan Azərbaycanın tanınmış sənətkarına çevriləcək, o dövrdə isə gənc aktrisa olan Nəcibə Məlikova görünüb. Çıxışına "Göstərir Bakı!" kəlməsi ilə başlayan Nəcibə xanım tamaşaçıları televiziyanın fəaliyyətə başlaması münasibətilə təbrik edib. Həmin gün ekranda "Bəxtiyar" bədii filmi nümayiş etdirilib. Bu, televiziyanın yaddaşına və tarixinə yazılan ilk cümlələrə çevrildi.

1957-ci ildən Azərbaycan televiziyası efirə həftədə 5 dəfə çıxmağa başladı. Verilişlərin gündəlik həcmi 2 saat 20 dəqiqəyə çatdırıldı. Ötən əsrin 70-ci illərdən etibarən isə, Azərbaycan Televiziyasının gündəlik veriliş və proqramlarının yayım həcmi 10 saata, 80-ci illərdə 18 saata çatdırıldı. 1970-ci ildə televiziya Dövlət Televiziya və Radio Verilişləri Komitəsi statusu aldı. 2005-ci ildən isə, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə şirkət "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinə çevrildi. Elə həmin ildən televiziya 24 saatlıq fasiləsiz yayıma keçdi.

2004-cü ilin fevralından başlayaraq, AzTV-nin proqramlarının Avropa ölkələrində daha keyfiyyətli yayımı təmin edildi. Bu məqsədlə "Teleradio" İstehsalat Birliyinin mütəxəssisləri Teleqüllə Kompleksində yeni rəqəmsal TV - Up-link stansiyasını quraşdırılır. İndi Azərbaycan Televiziyasının verilişləri həmin stansiyadan Avropaya "Hot Bird" və "SESAT", Şimali Amerikaya "Galaxy 25", Asiyaya "Turksat 1C" peykləri vasitəsilə yayılır.

## ZAMAN ÜÇÜN ƏN QABAQCIL SAYILAN TEXNİKİ VASİTƏLƏR TELEVİZİYA MƏKANINA YOL AÇIR

1956-cı il sentyabrın 2-nə qədər Bakı studiyası artıq 100-ə qədər bədii film göstərmişdi. Bakılılar televiziya ilə "Sovet Azərbaycanı", "Elm və texnika", "Xarici xronika", "Pioner" adlı kino jurnallarına baxa bilirdilər. Moskvadan və SSRİ-nin digər respublikalarından ölkəmizə qonaq gələn sənət adamları tez-tez Bakı studiyasından çıxış edirdilər. İlk dövrdə Bakı studiyası 30 kvadrat metrlik iki otaqdan ibarət idi. Yarıdan bölünmüş otaqların birində kino aparatları quraşdırılmışdı, o birindən isə diktorların və kiçik musiqi qruplarının çıxışları efirə verilirdi.

1985-ci ildə Azərbaycan televiziyası texniki təchizatına, film istehsalı və müxtəlif proqramlarla Mərkəzi Televiziyadakı çıxışlarına görə, SSRİ-də 4-cü yerə çıxdı. Zaman üçün ən qabaqcıl sayılan texniki vasitələr televiziya məkanına yol açdı. Texniki imkanların genişlənməsi verilişlərin keyfiyyətini ildən-ilə yüksəltdi, yeni formalar axtarıb-tapmaqda kömək etdi. Video kameralarının vasitəsilə çəkilişlər aparmaq, montaj etmək, həm də birbaşa efirə çıxmaq mümkün oldu.

## AZƏRBAYCAN TELEVİZİYASI ÜÇÜN ƏSL SINAQ ZAMANI

1988-ci ildə Dağlıq Qarabağ münaqişəsinin başlanması Azərbaycan televiziyası üçün əsl sınağa çevrildi. Kommunist Partiyasının nəzarəti altında fəaliyyət göstərdiyindən və SSRİ daxilində başlayan münaqişəyə hazır olmadığından, Azərbaycan Televiziyası informasiya siyasətini düzgün qura bilmədi. Separatçıların Xankəndidə keçirdiyi fasiləsiz mitinqlər barədə qısa xəbəri Azərbaycan Televiziyası yalnız 10 gündən sonra - "yuxarı"nın icazəsi ilə "Qarabağda yaranmış durum" adı altında efirə verdi. Sov.İKP Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun və Mərkəzi Komitə üzvlərinin Azərbaycana qarşı tutduqları ədalətsiz mövqeyə qarşı Bakıda başlayan kütləvi nümayişlər zamanı da meydandan birbaşa yayıma TV iki gün gec başladı. Bu isə AzTV rəhbərliyinin Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirovun iradəsinin əleyhinə çıxması nəticəsində mümkün oldu. Azərbaycan televiziyasının əməkdaşları da xalqla birlikdə Qorbaçovun anti-Azərbaycan siyasətinə və Azərbaycanın o zamankı rəhbərliyinin milli maraqlardan uzaq olan davranışına və addımlarına qarşı çıxaraq Azərbaycan Konstitusiyasına, beynəlxalq hüquq normalarına əməl edilməsini və erməni separatçılarının qanunsuz hərəkətlərinin qarşısının alınmasını tələb edirdi. Azərbaycan Televiziyası ilə çıxış edən siyasi icmalçılar Kremlin Azərbaycana qarşı apardığı siyasətin mahiyyətini, respublikamızda yaranmış idarəolunmaz ictimai-siyasi vəziyyəti və xalqın haqlı tələblər irəli sürdüyünü cəsarətlə dilə gətirirdilər. Moskvadan gələn emissarların Azərbaycan televiziyası vasitəsilə Kremlin Bakıya qoşun yeritməyəcəyi və fövqəladə vəziyyət elan etməyəcəyi barədə vədlərinə baxmayaraq, 1990-cı il yanvarın 19-da saat 19:26-da Azərbaycan Televiziyasının enerji bloku partladıldı. Azərbaycan Televiziyasının yayımını yalnız yanvarın 28-də bərpa etmək mümkün oldu. 1991-ci il oktyabrın 18-də Azərbaycan dövlət müstəqilliyini elan etdi. Azərbaycan Televiziyası müstəqil dövlətin əsas televiziyasına çevrildi.

## "İDMAN AZƏRBAYCAN" İDMAN İCTİMAİYYƏTİ VƏ İDMANSEVƏRLƏRƏ GÖZƏL HƏDİYYƏ OLDU

Azərbaycan Televiziyasının son illərdəki daha bir uğuru 2009-cu il fevralın 1-dən efirə çıxan "İdman Azərbaycan" kanalıdır. Bu kanal idman ictimaiyyəti və idmansevərlərə gözəl hədiyyə oldu. Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan "İdman Azərbaycan" Televiziyasının fəaliyyəti dövlətimizin idmana, gənclərin sağlam ruhda böyüməlırinə verdiyi önəmin sübutudur. Artıq "İdman Azərbaycan" Televiziyası efir məkanında öz yerini çoxdan təsdiqləyib və fəaliyyət göstərdiyi 7 ildə dövlətimizin idman siyasətinə uğurla xidmət edir. Kanal dünyanın hər yerindən bütün növ idman yarışlarını, müxtəlif çempionatları birbaşa, özü də yüksək peşəkarlıqla yayımlayır, idman xəbərlərini operativliklə tamaşaçılara çatdırır.

## "MƏDƏNİYYƏT" KANALI TAMAŞAÇILARIN GÖRÜŞÜNƏ GƏLDİ

64 il əvvəl yaranan Azərbaycan Televiziyası bu gün artıq tamam başqa bir görkəmdədir. Kifayət qədər təcrübəsi, zəngin fondu, müasir texniki təchizatı və peşəkar kadr potensialı olan kanal uğurlu dövrünü yaşayır. Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 05 oktyabr tarixli Fərmanı ilə Milli Televiziya və Radio Şurası yaradıldı. Şura televiziya və radio yayımı sahəsində dövlət siyasətinin həyata keçirilməsini təmin etmədə fəaliyyət göstərir.

2011-ci ildə, AzTV-nin 55 yaşının tamamında, onun nəzdində Azərbaycan ziyalılarının və sənətçilərinin çoxdankı arzusu olan "Mədəniyyət" kanalı ilk dəfə tamaşaçıların görüşünə gəldi. Bu kanalın ərsəyə gəlməsi Azərbaycan Prezidenti İlham Əliyevin mədəniyyətimizə qayğısının daha bir təzahürüdür. Bu gün "Mədəniyyət" kanalı Azərbaycan mədəniyyətini dünya mədəniyyətinin tərkib hissəsi kimi təbliğ edir, dünya mədəniyyətinin incilərini isə Azərbaycan tamaşaçılarına çatdırır. Ümummilli Lider Heydər Əliyev belə deyirdi ki, millətin mədəniyyətini qorumaq təkcə mədəniyyət xadimlərinin, təkcə bu sahədə işləyən insanların, ziyalıların işi deyil, eyni zamanda dövlət rəsmilərinin, bütün dövlət strukturlarının, qurumlarının vəzifəsidir. Mədəniyyət millətin vizit kartıdır. Ulu Öndər Heydər Əliyevin Azərbaycan mədəniyyətinin, incəsənətinin, milli mənəvi dəyərlərimizin qorunması, inkişafı və gələcək nəsillərə çatdırılması istiqamətində gördüyü əvəzsiz işlər uğurla davam etdirilir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycan mədəniyyətinin təbliği sahəsində çoxsaylı layihələr həyata keçirilir. Ölkəmizin dilbər güşələrində Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçirilən bütün irimiqyaslı mədəni tədbirlər, məhz "Mədəniyyət" kanalının vasitəsilə tamaşaçılara çatdırılır. Bu sırada Heydər Əliyev fondunun təşəbbüsü ilə keçirilən respublika və televiziya muğam müsabiqələrini, Qəbələ musiqi festivalını xüsusi qeyd etmək lazımdır. Bu kanalın verilişlərini izlədikcə, bir daha bu qənaətə gəlirsən ki, mədəniyyətimizin elə parlaq inciləri var ki, onlar yüz illər sonra da Azərbaycanı yüksək mərtəbədən təmsil edə bilər.

Bu gün efir məkanında öz sözünü deyə bilən, uğurlara imza atan Azərbaycan televiziyasının 64 yaşını qeyd edirik. Böyük və ali məqsədə çatmaq üçün uzun bir yola çıxan Azərbaycan Televiziyasının kollektivini təbrik edir, daha əlçatmaz uca zirvələr fəth etməsini arzulayırıq.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Ermənistan AŞPA-da Sərsəng Su Anbarı ilə bağlı qəbul olunan qətnaməyə niyə əməl etmir?



***Ermənistan tərəfindən 20 faiz torpaqları işğal edilmiş Azərbaycan öz səsini dünya ictimaiyyətinə intensiv şəkildə çatdıraraq, təbliğatı daha da gücləndirir, ermənilərin işğalçılıq siyasətini, terrorçuluq fəaliyyətini, 1 milyon insanın qaçqınlıq problemini Avropa dövlətlərinə, ümumillikdə, dünya ictimaiyyətinə daha geniş şəkildə çatdırır.***

Onlar təkcə silahlı mübarizə ilə deyil, mənəvi abidələrimizə də zərbə vurmaq yolu ilə işğalçılıq siyasətlərini davam etdirirlər. İkitərfli mübarizədə siyasi və ideoloji müharibədə erməni kimliyi özünü büruzə vermiş olur. Ötən əsrin 90-cı illərində baş verən ictimai-siyasi proseslər nəticəsində xalqın milli varlığını, onun tarixini əks etdirən abidələr Ermənistan təcavüzkarları tərəfindən dağıdılıb. Ermənistan tərəfindən Azərbaycana qarşı əsassız ərazi iddiasının irəli sürülməsi və zəbt etdikləri ərazilərdə maddi abidələrə qarşı talançılıq siyasətinin yeridilməsi beynəlxalq hüquq normalarının kobudcasına pozulması deməkdir. Hərbi təcavüz nəticəsində, işğal olunmuş ərazilərdə ilk insan məskənlərindən olmuş məşhur Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları Ermənistan ərazisində qalaraq hərbi məqsədlərlə istifadə edilərək, qəsdən dağıdılır. Xocalı, Ağdam, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarındakı kurqanlarla yanaşı, işğal olunmuş Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki qəbiristanlıqlar, türbələr, məzarüstü abidələr, məscidlər, məbədlər, Qafqaz Albaniyasına məxsus abidələr və digər abidələrimiz məhv edilir. İşğal altında olan ərazilərdəki əlverişli təbii şərait, onun sıx meşələri erməni təcavüzkarları tərəfindən talan edilir və Dağlıq Qarabağın ətrafındakı Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli və Ağdam rayonlarının əraziləri əkilib-becərilmir və ona görə də, böyük ekoloji fəlakət yaşanılır. Təbiətə qarşı olan ermənilərin amansızsızlıq aksiyası onların Azərbaycan ərazilərinə qarşı qısqanclığını, iddialı mövqedən çıxış edib, özünəməxsus formanı tətbiq etməsi ilə yanaşı, bir məntiqin də gerçəkliyini təsdiqləyir. Bu, ermənilərin Qarabağ ərazisində müvəqqəti olduqlarını təsdiqləyən faktordur.

## ERMƏNİSTAN SU RESURSLARINDAN SİYASİ TƏSİR VƏ YA TƏZYİQ VASİTƏSİ KİMİ İSTİFADƏNİ DAYANDIRMALIDIR

Ağdərənin də təbii resursları Ermənistan tərəfindən vəhşicəsinə istismar olunmaqla bərabər, həmçinin, Sərsəng Su Anbarı da ekoloji terror məqsədləri ilə istifadə edilir. Ermənistan tərəfindən Sərsəng Su Anbarının qeyri-humanist bir şəkildə istifadə edilməsinə cəhd göstərilməsi, beynəlxalq Konvensiyaların, o cümlədən də, sosial-iqtisadi və siyasi hüquqlar haqqında beynəlxalq haqqın, Cenevrə Konvensiyalarının kobud şəkildə pozulmasıdır.

Tərtərçayı üzərindəki Sərsəng Su Anbarı hazırda Tərtər rayonunun erməni işğalında olan ərazisində qalmış və Azərbaycan tərəfindən istismarı qeyri-mümkün olmuşdur. 1976-cı ildə inşa edilən Sərsəng Su Anbarı respublikada bəndinin hündürlüyünə görə ən yüksəyidir və respublikanın 6 rayonunun (Tərtər, Ağdam, Bərdə, Goranboy, Yevlax və Ağcabədi) 100 min hektara yaxın torpaq sahəsini suvarma suyu ilə təmin edirdi. Yalnız Sərsəng Su Anbarının işğalı nəticəsində, 100 min hektar sahədə kənd təsərrüfatı bitkilərinə suvarma suyunun verilməməsi respublikanın bu regionuna əvəzolunmaz zərər vurmuşdur. İşğal altında qalan Sərsəng Su Anbarının texniki təhlükəsizliyinin təmin olunması üçün zəruri diqqət ayırmır və bu da, nəticə etibarilə, Tərtər çayı boyunca yerləşən çoxsaylı Azərbaycan yaşayış məntəqələri üçün təhlükə törədir. Sərsəng Su Anbarı, onun üzərində olan su elektrik stansiyası Ermənistan tərəfindən ekoloji və humanitar terror obyektinə çevrilib.

Vaxtı ilə böyük bir ərazini suvarma suyu ilə təmin edən anbar önəmli içməli su qaynağıdır. Avropa Şurası tərəfindən müvafiq istiqamətdə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulsa da, terrorçu ermənilər ateşkəsi pozmaqla yanaşı, Sərsəng Su Anbarından da öz çirkin əməllərini həyata keçirmək üçün istifadə edirlər. Vurğulamaq yerinə düşər ki, Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin hazırladığı "Azərbaycanın sərhəd rayonunun əhalisi sudan məhrum edilmişdir" adlı qətnamə layihəsi erməni lobbisinin ciddi manevrlərinə baxmayaraq, qurumun büro iclasında müzakirə olunmuş və məruzəçi təyin edilməsi ilə əlaqədar sosial məsələlər, səhiyyə və davamlı inkişaf komitəsinə yönləndirilməsi barədə təklif büro tərəfindən yekdilliklə qəbul edilmişdir. Bu qərar həmin gün bürodun iclasından dərhal sonra assambleyanın plenar sessiyasında təsdiqlənmişdir. Sərsəng Su Anbarı ilə bağlı 13468 saylı sənədi 11 ölkənin 27 deputatı imzalamışdır. Sənəddə bildirilir ki, assambleya problemin vacibliyini nəzərə alaraq, bu məsələ ilə ciddi şəkildə məşğul olmalı, bununla əlaqədar tezliklə xüsusi ölçü götürməli, beynəlxalq ictimaiyyətə çağırış səsləndirmək üçün qətnamə layihəsi qəbul etməlidir. Qətnamədə göstərilir ki, içməli sudan maneəsiz istifadə hər bir dövlət üçün əsas hüquq, həyat mənbəyi və strateji əhəmiyyətə malikdir və sərhədlərin mövcudluğu bu istifadəni məhdudlaşdıra bilməz. Assambleya təsdiq edir ki, qəsdən sudan məhrum etmə günahsız vətəndaşlara zərər yetirmə vasitəsi kimi istifadə edilə bilməz.

## ERMƏNİSTANIN DAVRANIŞI AVROPA ŞURASININ TAMHÜQUQLU ÜZVÜ KİMİ ÜZƏRİNƏ GÖTÜRDÜYÜ OHDƏLİKLƏRƏ UYGUN GƏLMİR

Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərindən birində yerləşən Sərsəng Su Anbarında mütəmadi baxım işlərinin aparılmaması bütün ətraf ərazilər üçün təhlükə yaradır. Assambleya vurğulayır ki, Sərsəng Su Anbarının baxımsız vəziyyətdə qalması çoxsaylı insan tələfatı və yeni humanitar böhrana səbəb ola biləcək böyük fəlakətə gətirib çıxara bilər. Bu vacib humanitar problemi nəzərə alaraq, assambleya Ermənistan silahlı qüvvələrinin sözügedən regiondan dərhal çıxarılması və bununla müstəqil mühəndis və hidroloqlar tərəfindən yerində təhqiqat aparılmasının təmin edilməsi, sutoplama dövründə Sərsəng su resurslarının istifadəsini və s. tələb edir. Ermənistan hakimiyyətinin su resurslarından siyasi təsir və ya təzyiq vasitəsi kimi istifadə etməyi dayandırması da tələb olnur. Assambleya Ermənistanın bu kimi davranışının Avropa Şurasının tamhüquqlu üzvü kimi üzərinə götürdüyü öhdəliklərinə uyğun gəlmədiyini hesab edir.

## ERMƏNİLƏR "İŞĞALÇI DÖVLƏT İŞĞAL EDİLMİŞ ƏRAZİLƏRDƏ MÜLKİ ŞƏXSLƏRİN MÜDAFİƏSİNİ TƏMİN EDİR" MÜDDƏASINI POZUR

İşğala qədər həmin zonada 100 min hektara qədər torpaq suvarılırdı. İşğaldan sonra Azərbaycan bu imkanlarından yararlana bilmədi. Tərtər, Bərdə, Yevlax, Ağdam və Goranboy rayonları Sərsəng Su Anbarından istifadə edilməklə torpaqların suvarılması imkanlarını itirdi. Ermənilər yayda, suya ehtiyac olanda Sərsəng Su Anbarından suyu vermir, qışda, ehtiyac olmayanda isə suyu buraxır. Nəticədə, Tərtərçayda sel və daşqın yaranır.

Belə önəmli bir içməli su qaynağının münaqişə səbəbindən, təhlükə altında olması təəssüf doğurur. Ermənilərin ekoloji terroru Azərbaycanın flora və faunasına zərər yetirir, təbii sərvətlərini məhv edir. Bu ermənilərin bilərəkdən Azərbaycana vurduqları ziyandır.

Bu gün Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində Sərsəng Su Anbarından kanal çəkmək cəhdi ilə bağlı hərəkətləri pislənilir. Bildiyimiz kimi, Təhsil, Elm və Mədəniyyət Məsələləri üzrə İslam Təşkilatı da (ISESCO) bəyanatla çıxış etmişdi. Sənəddə Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində Sərsəng Su Anbarından kanal çəkilişi ilə bağlı hərəkətləri pislənilərək, Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində yeni su kanalı çəkilməsi cəhdlərini beynəlxalq hüququn kobud şəkildə pozulması kimi qiymətləndirir. İSESKO-nun da erməni aqressiyası və Azərbaycanın 20% ərazilərin işğalı ilə bağlı mövqeyi ondan ibarətdir ki, bu işğal qanunsuzdur və təşkilat buna qarşı çıxır. Çünki bu, beynəlxalq qanunların pozulmasıdır, ikincisi də bu ərazilər Azərbaycanın əzəli torpaqlarıdır. Ermənistanın bu ekspansionist planı Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyəti dəyişməyə və ISESCO-nun üzvü olan Azərbaycan Respublikasının təbii ehtiyatlarının talan edilməsinə yönəlib. Bu xüsusi mülkiyyət və dövlət mülkiyyəti hüquqlarının, habelə, beynəlxalq hüququn, o cümlədən, Dördüncü Cenevrə Konvensiyasında təsbit olunmuş "işğalçı dövlət işğal edilmiş ərazilərdə mülki şəxslərin müdafiəsini təmin edir" müddəasının pozulmasıdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# AТƏT Attarın akkreditasiyasını niyə ləğv etdi?!



Xəbər verdiyimiz kimi, Mərkəzi Seçki Komissiyasının bu gün keçirilən iclasında ilk olaraq ATƏT DTİHB-nin 9 fevral parlament seçkiləri ilə əlaqədar seçki müşahidə missiyasının müraciətinə baxılıb.

Qeyd olunub ki, ATƏT öz missiya rəhbəri müşahidəçilərdən biri olan Aygün Attarın akkreditasiyasının ləğv olunmasını xahiş edir. MSK-nın qərarına əsasən müraciət təmin edilib və Aygün Attara verilmiş lövhəcik etibarsız hesab edilib. Bəs Aygün Attar kimdir və hansı səbəbə görə akkreditasiyası ləğv edilib?

"Qafqazinfo" məlumat üçün bildirir ki, ATƏT müşahidəçilərindən olan professor, tarixçi Aygün Attar uzun illər Türkiyənin Girəsun Universitetinin rektor vəzifəsində çalışıb. 2014-cü ildə Oksford Universitetinin Sokrat mükafatına mükafatına layiq görülən tarixçi həmçinin Azərbaycan tarixi və mədəniyyətinin təbliği istiqamətində fəaliyyət göstərib. Belə ki, o, ermənilərin Azərbaycan və Anadolu türklərinə qarşı törətdiyi soyqırımlara həsr olunmuş bir çox məqalənin müəllifidir.

3-12 fevral tarixlərində ATƏT-də beynəlxalq müşahidəçi kimi ölkəmizdə səfərdə olan A. Attar seçki günü yazdığı bir məqalədə təssüratlarını belə bölüşüb: "İkinci dəfə müstəqillik əldə etdiyi tarixin üstündən hələ 30 il keçməsə də, müsbət inkişafların görməzlikdən gələnərək yalnız neqativliyin önə çıxarılması Azərbaycan adına da, vətəndaşı olduğum Türkiyə adına da məni çox üzdü.

Bu sətrləri yazdığım zaman seçkilər hələ bitməyib və seçkiləri izləyən ATƏT-in seçki müşahidə komitəsinin hesabatı açıqlanmayıb. Ancaq şəxsən hesab edirəm ki, hesabat mənfi olacaq, çünki qərəzlilik obyektivliyə zərər verəcək.

ATƏT-in hazırladığı hesabatın hüquqi sanksiyası yoxdur, lakin hesabat Azərbaycanla ATƏT-ə üzv ölkələr arasındakı münasibətlər üçün vacibdir. Sizə məsləhətim budur ki, Azərbaycanda neft və təbii qazdan başqa xoşniyyətli insan enerjisini vurğulayan diskussiyalara üstünlük verin və bu fəaliyyətlərə dəstək olun. Ölkədə gedən seçki prosesinə hörmətlə yanaşmaq Azərbaycanın dəvəti ilə keçirilən seçkilərdə bütün xarici müşahidəçilərin qanuni borcudur".

Qısa olaraq qeyd etdiyimiz məqalə çap olunduqdan sonra Azərbaycanla bağlı səsləndirdiyi fikirlərə görə ATƏT müşahidə şurasının tərkibində yer almış nümayəndənin akkreditasiyasının ləğvi üçün MSK-ya müraciət edib. Hər zaman insanların öz fikrini səsləndirməkdə azad olduğunu vurğulayan bir qurumun belə bir addım atması ağıllarda sual işarəsi yaradıb.

Nəyə görə ATƏT belə dözümsüz davranaraq öz fikrini ifadə etdiyi üçün missiyasının tərkibində yer almış bir professora qarşı bu cür mövqe nümayiş etdirib? Həm dözümsüzlük nümayiş edilib, həm də bərabər fikirlərə yer ayrılmayıb. Belə çıxır ki, nümayəndə ölkə əleyhinə fikir yazsa, ATƏT heç də onun akkreditasiyasının ləğv olunması ilə bağlı müraciət etməyəcək və əksinə olaraq onu dəstəkləyəcək.

Məsələ ilə bağlı Lent.az-a açıqlama verən A.Attar bildirib ki, toplantıda Azərbaycanda keçiriləcək seçkilərlə bağlı müşahidəçilərə qeyri-obyektiv məlumatlar verilib: "Bununla əlaqədar fevralın 8-də sosial media üzərindən ATƏT Müşahidə Missiyasının rəhbərliyinə etirazımın ifadə olunduğu müraciət yazdım. Müraciətimdə ATƏT-i beynəlxalq hüquq çərçivəsində hərəkət etməyə, Azərbaycanın daxili işlərinə qarışmamağa, obyektiv mövqe ortaya qoymağa çağırdım. Mən mədəni çərçivədə öz tənqidi mövqeyimi ortaya qoydum. Fevralın 9-da isə ATƏT/DTİHB-nin Müşahidə Missiyasının üzvü kimi vəzifəmi yerinə yetirdim. Fevralın 11-də müşahidəçilərin sonuncu toplantısında ATƏT-dən iki nəfər mənə müşahidəçi kimi akkreditasiyamın ləğv olunduğunu söylədilər. Bunun səbəbini soruşdum. Soruşdum ki, beynəlxalq müşahidəçi kimi obyektivlikdən kənar bir hərəkətim mi olub? Dedilər ki, yox. Səbəb fevralın 8-də etdiyim müraciətdir. Mən isə ATƏT-in ölkələrdə fikir, mətbuat azadlığı, demokratiyanın təsis olunması üçün təsis edildiyini xatırlatdım. Dedim ki, necə olur ki, ATƏT özü kiçik bir tənqidə belə dözmür, amma başqa ölkələri tənqid edir, guya dərs verir. Onlar da mənim akkreditasiyamın ləğv olunması üçün MSK-ya müraciət etdi. Məsələnin mahiyyəti budur".






# Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin 8-ci ildönümü təntənə ilə qeyd olunub

***Fevralın 13-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yaradılmasının 8-ci ili tamam olur. Əlamətdar gün münasibətilə Xidmətin rəhbərliyi və şəxsi heyəti Fəxri Xiyabanda Ümummilli Lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edib.***

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçək dəstələri düzülüb. Şəhidlər Xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən övladlarının unudulmaz xatirəsi yad edilib, "Əbədi məşəl" abidəsi önünə əklil qoyulub.

Daha sonra xidmətin aparatında qurumun yaradılmasının 8 illiyinə həsr olunan təntənəli mərasim keçirilib. Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimov qurumun yaranması, inkişafı və fəaliyyəti barədə geniş məruzə ilə çıxış edib.

Bildirib ki, Müstəqil Azərbaycanın bugünkü dinamik inkişafı, dünyada böyük nüfuz və söz sahibi olması Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev böyük qətiyyət və əzmkarlıqla ölkəmizi sabitlik və təhlükəsizlik məkanına çevirib.

Xidmət rəisi qeyd edib ki, ölkəmizdə aparılan islahatların tərkib hissəsi olaraq Prezident İlham Əliyevin 13 fevral 2012-ci il tarixli Fərmanı ilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti yaradılıb. Ötən 8 il ərzində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində böyük inkişaf yolu keçərək, hərb quruculuğu prosesinin təkmilləşdirilməsinə öz töhfələrini verib.

SHXÇDX müstəqil mərkəzi icra hakimiyyəti orqanı kimi Silahlı Qüvvələrlə cəmiyyət arasında bir növ körpü rolunu oynayır və səkkiz ildir ki, bu vəzifələri müvəffəqiyyətlə icra etməklə dövlətin və vətəndaşların xidmətindədir.

Xidmət rəisi vurğulayıb ki, ötən dövr ərzində səfərbərlik hazırlığı və səfərbərlik işinin təşkili, vətəndaşların ilkin hərbi qeydiyyata alınması, müddətli həqiqi hərbi xidmətə hazırlanması və hərbi xidmətə çağırılması, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması, eyni zamanda vətəndaşların qəbulu və müraciətlərinə baxılması, vətəndaş-məmur məmnunluğunun təmin edilməsi, qanunvericilik bazasının təkmilləşdirilməsi, korrupsiyaya qarşı mübarizə, Xidmətin daha bacarıqlı və savadlı kadrlarla komplektləşdirilməsi, maddi-texniki bazanın gücləndirilməsi və digər sahələrdə bir sıra tədbirlər həyata keçirilib. Dövlətimizin qayğısı nəticəsində artıq səkkiz il ərzində bir neçə rayonda SHXÇDX-nin yerli struktur bölmələrinin yeni inzibati binalar istifadəyə verilib. Ötən il xidmətin Goranboy rayon şöbəsinin yeni inzibati binasının açılışı olub, Lənkəran rayon şöbəsinin xidməti şəraiti yaxşılaşdırılıb. Qəbələ, Göygöl və Qax rayon şöbə və bölmələrinin



yeni inzibati binalarının inşası başa çatdırılıb, Siyəzən rayonunda isə inşaat işləri davam etdirilir. O cümlədən, işğal altında olan Xocavənd rayon əhalisinin, hərbi vəzifəlilərin, çağırışçıların səfərbərlik və hərbi xidmətə çağırış kimi mühüm işlərinin icrasını daha mütəşəkkil qaydada təmin etmək məqsədilə xidmətin yerli struktur bölməsi yaradılıb.

Xidmət rəisi əlavə edib ki, elektron xidmətlərin göstərilməsi və aidiyyəti qurumlar arasında inteqrasiyanın yaradılması istiqamətində müvafiq işlər davam etdirilib, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyinin Əhalinin Dövlət Reyestri Xidməti, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi və Dövlət İmtahan Mərkəzi ilə inteqrasiya işləri yekunlaşdırılıb.

Bildirib ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti hərbi vətənpərvərlik tərbiyəsinin daha geniş müstəvidə təbliği məqsədilə ötən il tərəfdaş qurumlarla - "Bakı Metropoliteni" QSC ilə əməkdaşlıq çərçivəsində Bakı metrosunun stansiyalarında, "Azərbaycan Dəmir Yolları" QSC-nin Bakı Dəmir Yolu Vağzalında və sərnişin stansiyalarında, Bakı Nəqliyyat Agentliyinin "Koroğlu" Nəqliyyat Mübadilə Mərkəzi"ndə quraşdırılmış monitorlarda SHXÇDX-nin vətənpərvərlik mövzusunda hazırladığı iki videoçarxın yayımına başlanıb. Həmçinin şəhid ailələrinə, müharibə əlilləri və veteranlarına Xidmət tərəfindən daim diqqət göstərilir. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti respublikamızın bütün şəhər və rayonlarında Azərbaycan xalqının milli-mənəvi bütövlüyünü təcəssüm etdirən Novruz Bayramı, Qurban Bayramı, 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə, o cümlədən dekabrın 1-də və 2-də könüllülük hərəkatının üzvləri olan gənclərin iştirakı ilə "Azərbaycan Könüllülük Həftəsi" layihəsinin "Şəhidimiz" kampaniyası çərçivəsində şəhid ailələrinə ziyarət təşkil edib və onlara sovqat çatdırılıb.

Mərasimdə iştirak edən qonaqlar adından çıxış edən Flora Qasımova və digər natiqlər Xidmətin şəxsi heyətini ildönümü münasibətilə təbrik edib və xoş arzularını çatdırıblar.

Tədbirdə xidmətin bir qrup hərbi qulluqçusunun təltif edilməsi haqqında SHXÇDX rəisinin imzaladığı əmrlər elan olunduqdan sonra xidmətdə fərqlənənlərə dövlət təltifləri, həmçinin hərbi rütbələr və fəxri fərmanlar təqdim olunub.

Mərasimdə, həmçinin xidmətlə əməkdaşlıq edən vətəndaş cəmiyyəti institutlarının, veteranların, şəhid ailələrinin nümayəndələrinə təltiflər və hədiyyələr təqdim edilib.

Azərbaycan Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov, Milli Qəhrəman Vahid Quliyev və vətənpərvərlik mahnılarının ifaçısı Şəmistan Əlizamanlı "Hərbi vətənpərvərlik tərbiyəsində xidmətlərə görə" Azərbaycan Respublikasının medalı ilə təltif ediliblər.

Xidmətin yaradılmasının 8-ci ildönümü münasibətilə qurumun yerli idarə, şöbə və bölmələri tərəfindən respublikamızın rayonlarında da tədbirlər təşkil olunub.

# Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yaradılmasının 8-ci ildönümü Siyəzəndə qeyd olunub

***Dünən Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yaradılmasının 8-ci ildönümü münasibətilə SHXÇDX Siyəzən rayon bölməsinin əməkdaşları Siyəzən rayon Heydər Əliyev Mərkəzini ziyarət ediblər.***

Ziyarətə gələn SHXÇDX Siyəzən rayon bölməsinin şəxsi heyətinə Siyəzən rayon Heydər Əliyev Mərkəzinin direktoru İxtiyar İsayev Mərkəz haqqında geniş məlumat verərək, bildirdi ki, Siyəzən rayon Heydər Əliyev Mərkəzi 3 mərtəbədən və 14 otaqdan ibarətdir. Mərkəzdə dünya şöhrətli siyasi xadim Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən kitablar, fotolar, fəxri diplomlar və digər sənədlər sərgilənir. Fotolarda Ümummilli Lider Heydər Əliyevin uşaqlıq, yeniyetməlik, tələbəlik illəri, Dövlət Təhlükəsizlik Komitəsində işlədiyi, Azərbaycan Kommunist Partiyasının birinci katibi olduğu dövrlərdə Siyəzənə səfərləri əks olunmuşdur. Buradakı eksponatlar və fotolardan aydın görünür ki, müasir Azərbaycan tarixinin çox mühüm və taleyüklü səhifəsi, məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanı ilə yaradılan Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti fəaliyyətini insan və vətəndaş hüquq və azadlıqlarına hörmət, qanunçuluq, humanistlik və Silahlı Qüvvələr quruculuğunun təşkili prinsipləri əsasında qurur.

**RƏFİQƏ**

# AZƏRTAC - yüz illik şərəfli yol

***Martın 1-də Azərbaycan Dövlət İnformasiya Agentliyinin - AZƏRTAC-ın 100 yaşı tamam olur. Əgər Birinci Respublika dövründə agentliyin təşəkkülü, sonrakı illərdə onun inkişafı, fəaliyyəti və şanlı tarixi barədə informasiyanı açıq mənbələrdən, ədəbiyyatdan, veteranların xatirələrindən, habelə agentliyin özünün zəngin arxivindən götürməli olmuşamsa, AZƏRTAC-ın həyatının son 10 ili gözümün qabağında, bilavasitə mənim iştirakımla keçib.***

Əslində, mən, əgər belə demək olarsa, bu illəri AZƏRTAC-la birgə yaşamışam...

Düşünürəm müəyyən mənada mənəvi haqqım çatır ki, AZƏRTAC-ın tarixinin mənim də müasiri və birbaşa iştirakçısı olduğum hissəsi barədə oxucularımıza, yaxud agentliyin "fololverlər"inə (indi oxucuları belə adlandırmağı sevirlər) məlumat verim.

Mən AZƏRTAC-da işə qəbul ediləndə, agentlik beynəlxalq alyanslara təzəcə üzv olmuşdu. O zaman bu alyansların adları mənə heç nə demirdi: OANA və EANA - müvafiq olaraq, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatı və Avropa Xəbər Agentliklərinin Alyansı. Təbii ki, onda təsəvvür də edə bilməzdim ki, AZƏRTAC cəmi bir neçə il ərzində dünya informasiya agentlikləri ailəsində özünü tanıdacaq və elə böyük nüfuz qazanacaq ki, alyanslara qoşulandan bir neçə il sonra onların birinin sədrliyini, özü də alternativ seçim əsasında gizli səsvermə yolu ilə öz üzərinə götürəcək. O dövrdə təsəvvürə gətirmək çətin idi ki, vaxt gələcək, Dünya Xəbər Agentliklərinin Konqresi mənim doğma şəhərim Bakıda keçiriləcək və AZƏRTAC bu təşkilata da sədrliyi öz üzərinə götürəcək.

Bəli, o vaxtlar bütün bunlar fantastikaya bənzəyirdi. Amma bununla belə, fantastika cəmi bir neçə il ərzində reallığa çevrildi. Elə bir reallığa ki, ona toxunmaq və hətta onun iştirakçısına çevrilmək olar.

Məhz belə hallarda deyirlər ki, "inkişafla ayaqlaşmaq olmur!". AZƏRTAC da son 10 ildə məhz belə misli görünməmiş inkişaf yolu keçib. Mən özümü xoşbəxt insan saya bilərəm, çünki Azərbaycanın ən qocaman media təşkilatında işlədiyim 11 ildən bir qədər çox müddət ərzində bu inkişafın canlı şahidi və hətta iştirakçısı olmuşam. Bütün bu illər ərzində AZƏRTAC-ın kollektivi müasir Azərbaycan jurnalistikasının görkəmli peşəkarlarından biri Aslan Aslanovun rəhbərliyi ilə öz səylərini ümumi məqsədə - agentliyin fəaliyyətini yeni tələblər ruhunda və yeni minilliyin çağırışlarını nəzərə almaqla modernləşdirməyə yönəldib. Bu, rəqəmsal texnologiyalar, sosial şəbəkələr dövrüdür, bizim peşəmizdən olan insanların leksikonunun sələflərimizə tanış olmayan yeni terminlərlə hər gün zənginləşdiyi dövrdür. Bu, tərəfdaş təşkilatlarla, xarici həmkarlarla həm ikitərəfli əsasda, həm də yuxarıda adları çəkilən regional alyanslar çərçivəsində keyfiyyətcə başqa səviyyəli münasibətlər qurmaq dövrüdür. Əlbəttə, hər bir məmələkdaşın peşə təfəkkürünü və öz işinə münasibətini əsaslı şəkildə dəyişdirmədən, sözün həqiqi mənasında, iddialı olan bu məqsədə çatmaq mümkün deyildi və kollektivin hər bir üzvü bunu yaxşı başa düşürdü.

Mən "inqilab" sözünü sevmirəm və çox nadir hallarda bu kəlmədən istifadə edirəm. Lakin keyfiyyət dəyişiklikləri bu dərəcədə əsaslı xarakter daşıyanda, söhbət materiyanın özünün transformasiyasından, onun mahiyyətcə yeni pilləyə qalxmasından gedəndə, bu söz lap yerinə düşür. Bax, ən azı son 10 ildə AZƏRTAC-ın transformasiyası da bu cür əsaslı xarakter daşıdığına görə, onu inqilabi adlandırmaq tamamilə yerinə düşər.

Bəli, AZƏRTAC bir inqilab yaşadı! Bu gün AZƏRTAC, sözün tam mənasında, XXI əsrin xəbər agentliyidir. Nəyisə öyrəndiyimiz vaxtlar çoxdan keçib, indi özümüz də başqalarına öyrədirik. Təkcə üçüncü dünya ölkələrindən deyil, Avropa ölkələrindən olan həmkarlarımız təcrübə toplamaq üçün bizə gəlirlər. Bütün bunların arxasında agentliyin daim zənginləşən təcrübəsi, təkcə Azərbaycan cəmiyyətində deyil, dünya üzrə tərəfdaş agentliklər ailəsində artmaqda olan nüfuzu dayanır.

Biz hazırda bazar uğrunda barışmaz mübarizə gedən bir dünyada yaşayırıq. Elə bir dünyada ki, rəqiblər zamanın nəbzini tuta bilməyənlərə aman vermirlər, onlar ya rəqibləri tərəfindən udulur, ya da tarixinin səhnəsindən silinib gedirlər. Əgər bazarın hər hansı iştirakçısı öz işini modernləşdirmək zərurətini vaxtında hiss etmirsə, onda uduzur və keçmişə çevrilir. Əfsuslar olsun ki, bazarın amansız qanunu budur. Bu yerdə bir vaxtlar çox iri şirkət olan İsveçin NOKIA korporasiyasının rəhbəri Stefan Elopun 2013-cü ildə mətbuat konfransında dediyi sözlər yadıma düşür. O, şirkətin "Microsoft"un mülkiyyətinə keçdiyini elan edərkən kövrəldiyini gizlədə bilməyərək demişdi: "Biz səhvlərə yol vermədik, lakin nədənsə uduzduq".

Uduzmamaq və bazarda qalmaq üçün, sadəcə, "səhvlərə yol verməmək" və "öz işini düzgün qurmaq" həqiqətən də yetərli deyil. NOKIA-nı sıxışdırıb bazardan çıxaran "iPhone" korporasiyası da səhvlərə yol verməmişdi və öz işini düzgün qurmuşdu. Lakin o, sadəcə, "səhvlərə yol verməməkdən" və "öz işini düzgün qurmaqdan" azacıq irəli getmişdi. O, irəliyə doğru böyük addım atmaq üçün yollar axtarırdı. Sadəcə, "öz işini düzgün qurmaq" ona məmnunluq hissi bəxş etmirdi. Bu, onun üçün yetərli deyildi və başa düşdü ki, ona inqilab lazımdır. O, bu inqilabı etdi və qalib gəldi.

Azərbaycanın informasiya bazarında AZƏRTAC-a tay tutulacaq rəqiblər olmasa da, bizim kollektiv daxildə öz işini modernləşdirməyin və gələcəyə doğru böyük addım atmağın vacibliyini eynən bu cür başa düşüb. Bizi də heç kim məcbur etməyib, heç kim tələsdirməyib. Bu, daxildən dərk edilmiş bir zərurət idi və dövlətimizin başçısının ölkənin modernləşdirilməsi kursu götürməsindən, AZƏRTAC-ın menecmentinin bu kursu agentliyin fəaliyyətinə uyğunlaşdırmasından irəli gəlirdi.

Kimsə düşünə bilər ki, bunlar gəlişi gözəl sözlər və ya bir əməkdaş tərəfindən agentliyin tərifinin göylərə qaldırılmasıdır. Lakin qarşımızda heç bir öhdəliyi olmayan müstəqil mənbələrdən bu sözləri təsdiq edən çoxsaylı nümunə və istinadlar gətirmək olar.

Məsələn, elə götürək, AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanovun Koreya Respublikasının Prezidenti, Vyetnam Respublikasının Baş Naziri tərəfindən qəbul edilməsini, yaxud onun Böyük Britaniya şahzadəsi Çarlz, Livan, İran, Səudiyyə Ərəbistanı və bir sıra digər dövlətlərin informasiya nazirləri, Çinin dünya üzrə yüz milyonluq auditoriyası olan "Sinxua" agentliyinin və "China Daily" nəşrinin rəhbərləri ilə görüşlərini. Onların hamısı gərgin iş rejimi olan son dərəcə məşğul insanlardır və heç vaxt protokol xatirinə görüş keçirmirlər. Həmin şəxslər yalnız dünyada öz sanbalı olan ən nüfuzlu təşkilatların nümayəndələrini qəbul edirlər. Elə təkcə bu, AZƏRTAC-ın nüfuzunun artdığını sübut etmirmi?! AZƏRTAC-ın imici və beynəlxalq əlaqələri əvvəllər heç vaxt bugünkü qədər yüksək səviyyədə olmayıb!

Koreya Respublikasının Prezidenti Mun Ce-inin ötən ilin noyabrında AZƏRTAC-ın sədrinin rəhbərliyi ilə OANA nümayəndə heyətini qəbul etdiyi zaman dediyi sözlər yadıma düşür. OANA-nın saytında xəbərləri müntəzəm izlədiyini xüsusi vurğulayan Koreya dövlətinin başçısı Azərbaycan agentliyinin sədrliyi dövründə təşkilatın fəaliyyətində böyük tərəqqini qeyd edərək deyib: "Qarşımızda aradan qaldırılmalı olduğumuz maneələr hələ çoxdur. Amma mən inanıram ki, sizin dəstəyinizlə sülhün təmin olunması istiqamətində yeni tarixi addımlar atılacaq. OANA-nın hər bir üzvünə uğurlar arzu edirəm. Təşkilatın inkişafına və təkmilləşdirilməsinə töhfəsinə görə OANA-nın prezidenti - AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanova təşəkkürümü bildirirəm". Məlum məsələdir, prezidentlər söz demək xatirinə danışmırlar!

Yarım il əvvəl Vyetnam Respublikasının Baş Naziri Nquyen Suan Fuk OANA İcraiyyə Komitəsinin Hanoyda AZƏRTAC-ın sədrliyi ilə keçirilən iclasının iştirakçılarının bir qrupunu qəbul edib. O qeyd edib ki, təkcə Vyetnamla Azərbaycan arasındakı əlaqələrə deyil, ölkələrimizin iki ən böyük xəbər agentliyi arasındakı əlaqələrə də birinci dərəcəli əhəmiyyət verir.

Livanın İnformasiya naziri Melhem ər-Riyaşi 2017-ci ildə Beyrutda keçirilən görüşdə deyib ki, müasir rəqəmsal dövrdə medianın üzərinə böyük məsuliyyət düşür, etika və obyektivlik isə jurnalistikada həmişə aktual mövzular olub. Nazir bildirib ki, informasiyanı alıb onu bütün dünyaya yayan xəbər agentlikləri mədəni əlaqələrin, insanlar və xalqlar arasında dialoqun möhkəmlənməsinə diqqət yetirməli, münaqişələrin və qarşıdurmaların qarşısının alınmasına, etimadın möhkəmlənməsinə töhfə verməlidirlər. Ər-Riyaşi vurğulayıb ki, Asiya qitəsinin və Sakit okean regionunun 35 ölkəsindən 44 agentliyi öz sıralarında birləşdirən OANA AZƏRTAC-ın başçılığı ilə bu işdə böyük rol oynayır.

Səudiyyə Ərəbistanı Krallığının İnformasiya naziri Türki bin Abdulla əl-Şaban İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Milli Xəbər Agentlikləri Birliyinin (UNA) Baş Assambleyasının ötən ilin dekabrında Ciddədə keçirilmiş birinci növbədənkənar sessiyası çərçivəsində AZƏRTAC-ın nümayəndə heyətini qəbul edib. Nazir OANA-nın fəaliyyətinin canlanmasına və təkmilləşməsinə AZƏRTAC-ın töhfəsini nəzərə alaraq xahiş edib ki, azərbaycanlı həmkarlar UNA-nın da fəaliyyətini canlandırmağa kömək etsinlər. Zənnimcə, bu, AZƏRTAC-ın təkcə nüfuzunun deyil, həm də praktiki uğurlarının etiraf olunmasının təsdiqidir.

Bu gün AZƏRTAC, sadəcə, alyansların üzvü deyil, həm də OANA-nın vitse-prezidenti, Dünya Xəbər Agentlikləri Konqresi Şurasının üzvüdür. Agentlik Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (ANİA), Türkdilli Xəbər Agentlikləri Birliyinin (TKA), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin Milli Xəbər Agentlikləri Assosiasiyasının (BSANNA) təsisçilərindən biridir, KİV-lərin "Bir kəmər, bir yol" Əməkdaşlıq Forumunun (bu platforma barədə bir qədər sonra) həmtəsisçisidir. AZƏRTAC 2011-2013-cü illərdə BSANNA-ya sədrlik edib. İki ildən bir keçirilən Bakı Beynəlxalq Humanitar Forumunun proqramına daim AZƏRTAC-ın təşkilatçılığı ilə jurnalistika və media mövzusunda dəyirmi masalar daxil edilir. Çox az adam bilir ki, bu mötəbər ənənəvi Foruma ev sahibliyi edən Bakı haqqında qanadlı ifadəyə çevrilmiş "Humanitar Davos" sözlərini ilk dəfə AZƏRTAC-ın əməkdaşlarından biri işlədib. Bu ifadə o dərəcədə xoşa gəlib və elə yerinə düşüb ki, dərhal dillər əzbərinə çevrilib və Bakı Beynəlxalq Humanitar Forumunun frazeoloji loqosu kimi möhkəm kök salıb!

Nəhayət, 2016-cı ildə AZƏRTAC iki çox mühüm tədbiri - Dünya Xəbər Agentliklərinin V Konqresini və OANA-nın XVI Baş Assambleyasını eyni vaxtda keçirib. Gəlin, bu tədbirlərin Bakıda keçirilməsi faktının nə demək olduğu üzərində düşünək. Ümumiyyətlə, bu fakt Azərbaycana nə verdi? Əminəm ki, ilk növbədə, Azərbaycanın adı, onun simasında isə AZƏRTAC-ın adı təkcə çox nüfuzlu bu iki təşkilatın tarixinə deyil, həm də bütövlük-

# AZƏRTAC - yüz illik şərəfli yol




də dünya mediasının tarixinə həmişəlik qızıl hərflərlə yazıldı. Çoxlarına elə gələ bilər ki, bu iki tədbirin Azərbaycanda keçirilməsinə beynəlxalq birliyin razılığını almaq çox asan məsələdir. Həqiqətən də belə düşünənlər bilməlidirlər ki, dünyanın 80-dən çox ölkəsindən 100-dən artıq xəbər agentliyinin rəhbərləri sıx və yetərincə gərgin iş rejimi olan ciddi və mötəbər insanlardır. Əgər onlar bütün Yer kürəsini dolanıb Bakıya uçmağı qərara alırlarsa, deməli, həmin tədbirdə mütləq iştirak etməlidirlər. Skeptiklər bunu da bilməlidirlər ki, bu cür miqyaslı tədbirlərin keçirilməsi üçün təkcə müraciət etmək əsla yetərli deyil. Belə ciddi tədbirlərə ev sahibliyi etmək istəyən dövlətlər həmişə olub və bundan sonra da olacaq. Olimpiya oyunlarının, yaxud dünya çempionatlarının keçirilməsi hüququ uğrunda mübarizə aparan dövlətlər arasında ehtirasların necə coşduğunu yada salaq. Bu məsələ ev sahibi olan ölkə üçün təkcə nüfuz məsələsi deyil, - hərçənd bu da son dərəcə əhəmiyyətlidir, - həm də dünya birliyinin həmin dövlətə göstərdiyi etimaddır, onun bu tədbiri çox yüksək səviyyədə keçirəcəyinə əminlik ifadəsidir.

İkincisi, Dünya Xəbər Agentliklərinin V Konqresinin və OANA-nın XVI Baş Assambleyasının Bakıda keçirilməsi faktı təkcə Azərbaycanın yüksək potensialının qəbul edilməsinin təsdiqi deyil, həm də dövlətimizin beynəlxalq arenada qazandığı böyük nüfuzun təsdiqidir. Unutmayaq ki, bu nüfuzun zirvəsinə aparan yol da keşməkeşli olub. Gənc dövlət bədxahlarımızın - "qara piar", yanlış informasiya və "feyk" ustalarının səyləri ilə barəmizdə yaranmış stereotipləri qırmalı olub.

Üçüncüsü isə gəlin unutmayaq ki, dövlətimizin başçısı İlham Əliyev dünyanın bütün qitələrindən gəlmiş, öz ölkələrində və beynəlxalq aləmdə ictimai rəyin formalaşmasında söz sahibi olan adlı-sanlı qonaqları qəbul edib. Prezident bu görüşdə təkcə Azərbaycanın uğurlarından deyil, həm də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən, xalqımızın Xocalı faciəsindən, bu problemin səbəb və ağır nəticələrindən danışıb. Onların çoxu ölkələrinə qayıdandan sonra Bakıda eşitdiklərini öz cəmiyyətləri ilə bölüşüblər, həqiqəti öz vətəndaşlarına çatdırıblar.

Burada kiçik bir haşiyə çıxıb tarixə ekskurs etmək yerinə düşər. AZƏRTAC-ın dünyaya çıxmasının vacibliyi haqqında ilk dəfə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev düşünüb. Onun özünün dediyinə görə, hələ sovet dövründə Bakıda, daha sonra Moskvada rəhbər vəzifələrdə işləyərkən UNESKO tərəfindən OANA adlı təşkilatın yaradılması barədə eşidib. Azərbaycanın dövlət müstəqilliyi bərpa olunandan və Heydər Əliyev xalqın çağırışı ilə Azərbaycan dövlətinə başçılıq edəndən sonra o, ölkəmizin informasiya blokadasından çıxmasının yol xəritəsini şəxsən cızıb. Ümummilli Lider AZƏRTAC-ın dünya xəbər agentlikləri ailəsinə inteqrasiyasını bu xəritənin mühüm elementlərindən biri olaraq görürdü. Onun fikrincə, OANA milli agentlik üçün ilk addım, onun "dünyaya pəncərəsi" olmalı idi. Bu "pəncərə"ni açmaq lazımdı. Bu iş 2004-cü ildə baş tutdu. Məhz Ümummilli Liderin müdrik və uzaqgörən məsləhəti ilə dünyaya inteqrasiya kursu götürüldü. Çox təəssüf ki, Heydər Əliyev zəfər gününə qədər yaşaya bilmədi. Həmin gün Bakı təkcə bir vaxtlar onun inteqrasiya üçün tramplin olaraq nəzərdən keçirdiyi bir təşkilatın Baş Assambleyasına deyil, həm də Dünya Xəbər Agentliklərinin V Konqresinə ev sahibliyi etdi. Ulu Öndərin vəsiyyətini yerinə yetirdiyimizə görə bu gün fəxr edə bilərik.

"Sinxua" agentliyinin təşəbbüsü ilə AZƏRTAC-ın Çin Xalq Respublikasının "Bir kəmər, bir yol" proqramı çərçivəsində yaradılmış eyniadlı KİV-lərin Əməkdaşlığı Forumunun təsisçi üzvü olması agentliyimizin, onun simasında isə bütün Azərbaycan dövlətinin nüfuzunun artmasının daha bir təsdiqidir. Çin kimi nəhəng bir dövlətin agentliyinin bu son dərəcə nüfuzlu media platformasının təsisçi üzvü olaraq hər hansı başqa agentliyi deyil, məhz AZƏRTAC-ı seçməsi elə bir hadisədir ki, onun əhəmiyyəti heç bir ölçüyə gəlmir. Bunun təsdiqi olaraq çinli həmkarlar agentliyimizə möhürlənmiş rəsmi sertifikat göndəriblər. Bu sertifikat AZƏRTAC-ın şanlı tarixinin arxivini daha da zənginləşdirdi.

AZƏRTAC bu günə qədər dünyanın 47 milli informasiya agentliyi ilə əməkdaşlıq və informasiya mübadiləsi haqqında müqavilələr imzalayıb, 21 ölkədə müxbir məntəqələri fəaliyyət göstərir. "Facebook", "Twitter", "YouTube", "Instagram" sosial şəbəkələrində AZƏRTAC-ın 8 dildə profilləri fəaliyyət göstərir. Kollektiv multimedia texnologiyalarının mənimsənilməsində böyük uğurlar qazanıb. Agentliyin veb-saytı ən müasir meyarlara cavab verir.

Agentliyin yeni inzibati binası tezliklə qapılarını kollektivin üzünə açacaq. Dövlətimizin başçısı İlham Əliyevin diqqəti və qayğısı sayəsində inşa edilən bina texniki cəhətdən ən müasir standartlara uyğun təchiz ediləcək. Dünya xəbər sənayesinə liderlik edən agentliklərin nümayəndələri AZƏRTAC-ın "newsroom" layihəsinə heyran qaldıqlarını bildiriblər.

Bütün bunlar faktlardır. Faktları heç bir şey dəyişdirə bilməz.

Əlbəttə, saysız-hesabsız istinadlar gətirmək olar. Lakin məgər aşkar olanın sübuta ehtiyacı varmı?

Agentliyin kollektivi 100 illik yubileyini həqiqətən də böyük uğurlar və nailiyyətlərlə, öz Vətəninə görə keçirdiyi qürur hissi ilə, dövlətimizin başçısı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın milli mətbuata diqqət və qayğısına görə onları dərin minnətdarlıq hissi ilə qarşılayır.

Babalarımız 1918-ci ildə Birinci Cümhuriyyəti qurublar. Onun ömrü uzun sürmədi. İllər keçəndən sonra biz tökülən qanlar bahasına onu nəinki bərpa edə bildik, həm də möhkəmləndirdik. Xalqımızın tarixində ilk informasiya agentliyi də bizə babalarımızdan miras qalıb. O, bir əsr ərzində şanlı tarix yaşayıb. Bugünkü AZƏRTAC istər sələflərimiz, istərsə də müasirlərimiz olan minlərlə həmvətənimizin yüzillik zəhmətinin bəhrəsidir. Bizim müqəddəs borcumuz onu qoruyub saxlamaq və gələcək nəsillərə ötürməkdir. Biz elə etməliyik ki, bir vaxtlar Stefan Elopun dediyi acı sözləri gələcək nəslin nümayəndələrindən heç kəs kədərlə təkrar etmək məcburiyyətində qalmasın.

Doğma AZƏRTAC, 100 yaşın mübarək! Daim yaşa!

***Vüqar Seyidov***
***AZƏRTAC-ın xüsusi müxbiri, tarix üzrə fəlsəfə doktoru***

# Yüksək patogen quş qripi və koronavirusa qarşı mübarizə tədbirləri gücləndirilib

***Bu ilin ötən dövrü ərzində 12 ölkədə yüksək patogen quş qripinin (YPQQ) aşkarlanması nəzərə alınaraq bu ölkələrin xəstəlik baş verən ərazilərindən quş və quşçuluq məhsullarının idxalına məhdudiyyət qoyulub.***





AZƏRTAC xəbər verir ki, Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli Yeni Azərbaycan Partiyasının İcra Katibliyində keçirilən mətbuat konfransında bu barədə məlumat verib.

Onun dediyinə görə, quş və quşçuluq məhsulları yüksək riskli məhsullar qrupuna aid edildiyindən ölkəyə idxal olunan məhsulun hər bir partiyası laboratoriya müayinəsinə cəlb olunur. Xəstəliyin qeydə alındığı Ukraynanın Vinnitsa vilayətindən başqa digər vilayətlərdən də daxil olan məhsullar müayinə edilərkən quş qripi xəstəliyinin törədicisinin "H9" serotipi aşkarlandığı üçün ölkənin bütün ərazisinə müvəqqəti məhdudiyyət tətbiq olunub. Hazırda coğrafi baxımdan xəstəlik dünyada çox geniş arealda yayılıb. Belə ki, Polşanın Şetsin və Lyubuske vilayətləri ilə sərhəddə yerləşən Almaniyanın Bradenburq vilayətində vəhşi quşlarda, Fransanın Strasburq vilayəti ilə sərhəddə yerləşən Almaniyanın Baden-Vurtemberq vilayətində isə ev təsərrüfatında YPQQ qeydə alınıb. Bununla yanaşı, Ərəbistan yarımadasında baş vermiş xəstəliyin köçəri quşlar vasitəsilə ölkəmizə gətirilməsinə yüksək epizootoloji risk mövcuddur. Qida Təhlükəsizliyi Agentliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyi həmin risklə əlaqədar əhaliyə birgə müraciətində vətəndaşları epizootik vəziyyətlə bağlı diqqətli olmağa çağırıb. Eyni zamanda, agentlik sahibkarları dünyanın müxtəlif ölkələrində müəyyən olunmuş heyvan xəstəlikləri ilə bağlı məsələlərə daha diqqətli və məsuliyyətlə yanaşmağa, quşçuluq məhsulları idxal edərkən mövcud qanunvericiliyin tələblərinə ciddi şəkildə əməl etməyə çağırıb. Bununla yanaşı, yüksək patogen quş qripi və Nyukasl xəstəliklərinin qeydə alındığı bölgələrdən respublikamıza diri quş və quş məhsullarının idxalına müvəqqəti məhdudiyyət qoyulub. Agentlik sədri onu da diqqətə çatdırıb ki, yanvarın 13-dən 17-dək ölkə ərazisində keçirilən epizootoloji monitorinqlər zamanı götürülən nümunələrin müayinəsi nəticəsində quş qripi xəstəliyinin törədicisi aşkar edilməyib. Xəstəlik əlamətləri müşahidə edilən və ya tələf olan quş cəsədinə də rast gəlinməyib. Fevralın 10-dan 14-dək agentlik aidiyyəti qurumlarla birgə ölkə ərazisini yüksək patogen quş qripindən qorumaq məqsədilə növbəti epizootoloji monitorinqlər keçirir.

Agentliyin sədri bildirib ki, son vaxtlar Çin Xalq Respublikasında yaranan və dünyanın bir sıra ölkələrinə yayılan koronavirus epidemiyasına qarşı mübarizə tədbirlərini gücləndirmək məqsədilə infeksiya riski olan ölkələrdən respublikamıza diri heyvanların, balıq və dəniz məhsullarının idxalına müvəqqəti məhdudiyyət qoyulub. Vəhşi heyvanlar vasitəsilə yayılma riski ölkəmiz üçün də mövcud olduğu üçün Qida Təhlükəsizliyi Agentliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyi ictimai iaşə obyektləri, istirahət mərkəzləri və digər ictimai yerlərdə vəhşi heyvanların qanunsuz olaraq saxlanılmasının qətiyyətlə yolverilməz olması barədə birgə məlumat yayıb. Agentlik respublikanın xarici ölkələrdən keçə biləcək heyvan xəstəliklərindən mühafizə olunması ilə əlaqədar vətəndaşların və sahibkarlıq subyektlərinin maarifləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirir. Bununla bağlı vətəndaşlara və sahibkarlara çoxsaylı müraciətlər olunub. Xüsusilə idxalçı sahibkarlara bəyan edilib ki, heyvanlar və heyvan mənşəli məhsulların nəqliyyata yüklənməsi yalnız agentliyin müvafiq icazəsindən sonra həyata keçirilməlidir.

Mətbuat konfransında Qoşqar Təhməzli Heyvanların İdentifikasiyası və Qeydiyyatı Sisteminin (HİQS) yaradılması istiqamətində bir sıra addımlar atıldığını qeyd edərək bildirib ki, bununla bağlı işçi qrupu yaradılıb, Dünya Bankı ilə birlikdə sistemin proqram təminatının texniki tapşırığı hazırlanıb və satınalma prosesinə başlanılıb. Növbəti mərhələdə sistemin mərhələli şəkildə yaradılması üçün Bakı və Sumqayıt şəhərləri və Abşeron rayonu pilot region kimi seçilməsi və burada iri və xırdabuynuzlu heyvanların və atların identikləşdirilməsini və heyvandarlıq məhsullarının istehsalı və emalını həyata keçirən müəssisələrin qeydiyyatının aparılması nəzərdə tutulub. Pilot regionda 55 min 455 baş iri, 145 min 305 baş xırdabuynuzlu heyvan və 409 baş at var. Bu il də həmin heyvanların identikləşdirilərək qeydiyyatının aparılması nəzərdə tutulub.

Konfransda ötən il ərzində əhalinin qida təhlükəsizliyinin təmin edilməsi məqsədilə Qida Təhlükəsizliyi Agentliyi tərəfindən qida təhlükəsizliyi, baytarlıq və fitosanitar sahədə yoxlamalar və idxal-ixrac nəzarəti tədbirləri həyata keçirildiyi qeyd olunub. Həmin tədbirlər zamanı ümumilikdə 103703,4 ton və 99 min 382 ədəd məhsul müxtəlif üsul və vasitələrlə zərərsizləşdirilib, 629,3 ton, 9734,9 litr və 152 ədəd məhsul məhv edilib, 33273 ton məhsul isə utilizasiya edilib.

# Meksika mətbuatında Azərbaycanda keçirilmiş parlament seçkilərinə dair növbəti məqalə dərc olunub

***Meksikanın nüfuzlu "El Sol de Mexico" qəzetində beynəlxalq müşahidəçi qismində Azərbaycanda səfərdə olmuş tanınmış jurnalist Federiko Lamontun 9 fevral tarixində Azərbaycanda keçirilmiş növbədənkənar parlament seçkilərinə dair "Azərbaycan: çoxlu seçici və şəffaf seçkilər" adlı növbəti məqaləsi dərc olunub.***




Məqalədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 5 dekabr 2019-cu il tarixində imzaladığı Sərəncama əsasən keçirilmiş növbədənkənar parlament seçkilərinə beynəlxalq müşahidəçilərin dəvət olunduğu qeyd olunur.

Azərbaycan hökumətinin dəvətinə əsasən seçkilərdə müşahidəçi qismində iştirak edən müəllif, Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovla keçirdiyi müsahibə zamanı onun seçkilərin şəffaf keçəcəyini, həmçinin yüksək seçici fəallığının müşahidə olunacağını vəd etdiyini bildirir və bu söylənənlərə Bakı şəhərində iştirak etdiyi 12 seçki məntəqəsində əyani şahidi olduğunu vurğulayır.

Məqalədə, habelə seçkilərin ABC Radio OEM daxil olmaqla 800-dən artıq beynəlxalq müşahidəçilər tərəfindən izləndiyi qeyd olunur, bunun Azərbaycan rəhbərliyinin təşəbbüsü ilə aparılan islahatlara daha da güclü təkan verəcəyi və həmin islahatların qeyri-neft sektorunun inkişafı, sosial-iqtisadi restrukturizasiyanı davam etdirməyə imkan verəcəyi xüsusilə vurğulanır.

Müəllif, xüsusilə, son dövrlərdə Azərbaycan hökuməti tərəfindən aparılan uğurlu islahatlar nəticəsində vergilər, gömrük, nəqliyyat, korrupsiyaya qarşı mübarizə sahələrində əldə olunmuş nailiyyətlərə görə Azərbaycanın Dünya Bankının "Doing Business 2019" hesabatında 57-ci pillədən 25-ci pilləyə qədər yüksəldiyini diqqətə çatdırır. Həmçinin yeni parlamentin Azərbaycan hökumətinin ölkə əhalisinin rifahı naminə uğurlu islahatları daha da qısa zamanda həyata keçirməyə imkan verəcəyini əminliyini ifadə edir.

# "Bu il Azərbaycanda idxal-karantin məntəqələri qurulacaq"



***"Bu il Azərbaycanda idxal-karantin məntəqələri qurulacaq". Bu barədə Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli dünən YAP İcra Katibliyində keçirdiyi mətbuat konfransında deyib.***

Q.Təhməzli bildirib ki, bu il iki idxal-karantin məntəqəsinin yaradılması nəzərdə tutulur: "Azərbaycanda beynəlxalq standartlara uyğun olaraq heyvan, bitki mənşəli və qida məhsullarının idxalı üçün nəzərdə tutulmuş idxal-karantin məntəqələrinin layihələnməsi həyata keçiriləcək".

Onun sözlərinə görə, növbəti illərdə də Azərbaycanın digər sərhəd-keçid məntəqələrindən kənar yerlərdə belə məntəqələrin qurulması planlaşdırılır: "İdxal-karantin məntəqələrində heyvanların identifikasiyası və qeydiyyatı da həyata keçiriləcək".

# Narkomanlığın yayılmasının qarşısını almaq üçün "Qaynar xətt" rabitə əlaqəsi yaradılacaq




***Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının qarşısını almaq məqsədilə vətəndaşların aktiv fəaliyyət göstərməsi, təşkilati-hüquqi formasından asılı olmayaraq aidiyyəti nazirlik, komitə və təşkilatlarla operativ qaydada əlaqələndirməni təmin etmək üçün "Qaynar xətt" rabitə əlaqəsinin yaradılması nəzərdə tutulur.***

AZƏRTAC xəbər verir ki, bu, "Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının 2020-ci il üçün İş Planı"nda əksini tapıb. Sənədə əsasən, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və onların sui-istifadəsi ilə əlaqədar mübarizə tədbirlərini daha da gücləndirmək məqsədilə aidiyyəti qurumların qarşılıqlı fəaliyyəti təmin edilməlidir.

# Səhiyyə Nazirliyi və DİN bu işə birgə baxacaq

***Azərbaycanda narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslərin vaxtında aşkar edilməsi üçün iki quruma tapşırıqlar verilib. SİA xəbər verir ki, bu barədə "Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının 2020-ci il üçün İş planı"nda qeyd olunub.***

Belə ki, narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslərin vaxtında aşkar edilməsi, könüllülük prinsipi əsasında müalicəsi və sağlam həyat tərzinə qaytarılması işinin təşkilində tibb müəssisələrinin, ərazi polis qurumlarının qarşılıqlı əlaqələrinin genişləndirilməsi və təkmilləşdirilməsinin icrası Səhiyyə Nazirliyinə və Daxili İşlər Nazirliyinə aidiyyəti qeyri-hökumət təşkilatlarını cəlb etməklə tapşırılıb.

# Azərbaycan dünyanın ən populyarlaşan 20 turist ölkəsindən biridir



***Son illər dövlətin dəstəyi ilə Azərbaycanda turizm sənayesi özünün inkişaf dövrünü yaşayır. Heç şübhəsiz ki, bu gün dünyanın da əsas turizm istiqamətləri sürətlə dəyişir. Ümumdünya Turizm Təşkilatının son hesabatında bildirilir ki, ötən ilin ən çox turist qəbul edən ölkəsi Fransa olsa da, digər populyar istiqamətlərdə ciddi azalma müşahidə olunub. Əksinə isə, yeni və daha cəlbedici istiqamətlər yaranıb və bunlardan biri də Azərbaycandır.***



Azərbaycan yeni populyarlaşan 20 turist ölkədən biridir. Ölkəmizin turist sayı 11,4 faiz artıb. Mütəxəssislərin proqnozlarına görə, Azərbaycanın hava nəqliyyatı sistemində bu ildən etibarən həyata keçiriləcək açıq səma siyasəti ölkəyə turizm axınını daha da artıracaq. Ölkəmizə turistlərin səyahət etməsinin digər bir səbəbi isə dünyada tanınmış brend hotellərin fəaliyyət göstərməsi və müasir hotel xidmətinin qurulması istiqamətində böyük irəliləyiş əldə olunmasıdır. Beynəlxalq miqyaslı tədbirlərin ölkəmizdə keçirilməsi Azərbaycanın tanıdılması, eləcə də, xarici turist axınına güclü təkan verib. Şübhəsiz ki, Azərbaycanda keçirilən beynəlxalq tədbirlər bu rəqəmlərə müsbət təsirini göstərib. Tarixdə ilk dəfə ölrkəmizdə təşkil edilən Birinci Avropa Oyunları və artıq bir neçə il, ardıcıl olaraq, keçirilən "Formula-1" üzrə Avropa Qran-Prisi ölkəmizə daha çox turistlərin cəlb olunmasında mühüm rola malik oldu. Geniş tamaşaçı auditoriyasını əhatə edən "Formula-1" yarışı Azərbaycan paytaxtının gözəlliyi və möhtəşəmliyini görməyə imkan yaratdı. Digər beynəlxalq nüfuzlu tədbirlər kimi "Formula-1" üzrə Avropa Qran-Prisi də ölkəmizə turist axınının sürətlənməsinə, əcnəbi vətəndaşlar tərəfindən daha yaxından tanınmasına və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına müsbət təsirini göstərib.

Həmçinin, bir sıra xarici ölkə vətəndaşları üçün viza sisteminin sadələşdirilməsi və "ASAN viza" sisteminin tətbiqi də bu sahənin inkişafına təkan verib.

## CARİ İLİN YANVAR AYINDA AZƏRBAYCANA GƏLƏNLƏRİN SAYI 18% ARTIB

Bu görülən işlərin nəticəsidir ki, cari ilin yanvar ayında Azərbaycana gələn turistlərin sayı 18% artıb. 2020-ci ilin yanvar ayında Azərbaycana səfər etmiş xarici vətəndaşların sayı 2019-cu ilin yanvar ayı ilə müqayisədə 35 min və ya 18,1% artaraq 226 min nəfərə çatıb. Ən böyük artım həm də ən çox səyahətçilərin gəldiyi Rusiya və Gürcüstandan müşahidə olunub. Belə ki, Rusiyadan gələnlərin sayı 12 min və ya 20,5% artaraq, 68 min, Gürcüstandan gələnlərin sayı isə, 8 min və ya 14,6% artaraq, 64 min olub.

Rusiyalı turistlərin dekabr və yanvar ayları üçün ən populyar istiqamətləri açıqlanıb. Statistik məlumata görə, siyahıya Minskin "Loqoysk" və "Siliçi" dağ-xizəyi kurortları başçılıq edir. Daha sonra Azərbaycanın "Şahdağ" və "Tufandağ" kurortları gəlir. Həm Yaxın Şərqdən, həm də Türkiyədən, müvafiq olaraq, 20,8% və 12,1% artımla hər birindən 24 min qonaq gəlib. Yaxın Şərq ölkələri arasında ən çox artım Səudiyyə Ərəbistanı (5 min artım) və Küveytdən (73,7% və ya 1,7 min artım) gələnlərin sayında müşahidə olunub.

İrandan gələn səyahətçilərin sayı 2019-cu illə müqayisədə 3 min və ya 26,5% artaraq, 13 min nəfər təşkil edib. Cənubi və Mərkəzi Asiyadan səyahət edənlərin sayı, müvafiq olaraq, 43% və 18,4% artaraq, hər biri 8 minə çatıb. Əvvəlki aylarda olduğu kimi, Cənubi Asiya region, üzrə Hindistan (5 min, artım 80,2%) və Pakistandan (3 min, artım 15,6%) gələn səyahətçilərin sayı üstünlük təşkil edir. Nümayəndəliklərin təsis olunduğu ölkələrdən (Çin, Hindistan, Rusiya, Almaniya, Səudiyyə Ərəbistanı, BƏƏ) 2020-ci ilin yanvar ayında 87 min (18,5% artım) səyahətçi gəlib. BƏƏ nəzərə alınmadan nümayəndəlikləri olan ölkələrdən gələnlərin sayında 23,8% artım müşahidə olunub.

Göründüyü kimi, bu ilin yanvar ayında Azərbaycana səfər etmiş xarici vətəndaşların sayı 2019-cu ilin yanvar ayı ilə müqayisədə 35 min və ya 18,1% artaraq, 226 min nəfər təşkil edib. Təsadüfi deyil ki, turistlər öz müsahibələrində Bakıda Şərqin və Avropanın harmoniyasının hökm sürdüyünü qeyd edirlər. Qədimliyi və müasirliyi özündə birləşdirən paytaxtımız turistlərin böyük marağına səbəb olur. Zəngin mədəniyyəti, qədim tarixi, əsrarəngiz təbiəti və qonaqpərvərliyi ilə seçilən Azərbaycan son illər turistlərin üz tutduğu məkanlardan birinə çevrilib.

Azərbaycan qonaqpərvər ölkə olmaqla yanaşı, eyni zamanda, ziyarət üçün ən təhlükəsiz ölkədir. Azərbaycan Prezidenti İlham Əliyev müsahibələrinin birində bildirib ki, ölkəmizdə ictimai sabitlik və təhlükəsizlik hökm sürür: "Azərbaycan inkişafda olan ölkə olmasaydı, əlbəttə, ictimai sabitlik, təhlükəsizlik olmasaydı, turistlər də gəlməzdi. Bu gün dünyada baş verən hadisələr göz qabağındadır". Elə turistlərin ölkəmizə üz tutmasının əsas səbəblərindən biri də bu faktordur.

***ZÜMRÜD BAYRAMOVA***

# DSX: Son bir ayda 38 əcnəbi vətəndaşın saxta sənədlərlə Azərbaycana gəlməsinin qarşısı alınıb




Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) sərhəd təhlükəsizliyinin təmin edilməsi sahəsində əməliyyat-axtarış və sərhəd mühafizə tədbirlərini uğurla davam etdirir. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, Xidmətin sərhəd nəzarəti əməkdaşlarının sayıqlığı və peşəkarlığı nəticəsində son bir ay ərzində dövlət sərhədindən buraxılış məntəqəsində 38 əcnəbinin, o cümlədən 21 nəfər İran, 3 nəfər İraq, 3 nəfər Özbəkistan, 2 nəfər Hindistan, 2 nəfər Misir, 2 nəfər Pakistan, 2 nəfər Efiopiya və hər birindən 1 nəfər olmaqla, Küveyt, Nigeriya, Nepal vətəndaşının sənədlərinin saxtalaşdırılması halları müəyyən edilib.

Saxlanılmış şəxslər barəsində müvafiq tədbirlər görülüb. Dövlət sərhədinin pozulmasına cəhd hallarının təhlili göstərir ki, əsasən, Yaxın Şərq və Asiya ölkələrinin vətəndaşları Avropa ölkələrinə məxsus saxta pasport və vizalardan istifadə edərək Azərbaycan ərazisindən tranzit keçməklə Avropa ölkələrinə getməyə cəhd göstərirlər.

# "Azərbaycan seçicisi iradəsini ortaya qoydu və istədiyi namizədə səs verdi"



"Azərbaycanda keçirilmiş 9 fevral növbədənkənar parlament seçkiləri tam demokratik, şəffaf, ədaləti, bütün Azərbaycan seçki qanunvericiliyə uyğun şəkildə keçirilib. Heç bir ciddi saxtakarlıq, qanun pozuntusu qeydə alınmayıb. Azərbaycanda seçkiləri izləyən beynəlxalq müşahidəçilər də bunu söylədi. Onların hamısı seçkilərin qanunauyğun keçirildiyini diqqətə çatdırdılar". Bunu SİA-ya açıqlamasında millət vəkili Elman Məmmədov deyib.

İkincisi, seçkini xaricdən gələn müşahidəçilər keçirmir, onlar yalnız seçkiləri müşahidə etməklə məşğuldurlar. Hansı qurumu təmsil etməsindən asılı olmayaraq bu belədir. Seçkini keçirən Azərbaycan xalqıdır və bu seçkinin keçirilməsinə, idarə olunmasına rəhbərlik edən Mərkəzi Seçki Komissiyasıdır. Azərbaycan xalqı da öz sözünü dedi, məntəqələrə gəlindi, səsverildi və seçki keçirildi. Cənab Prezidentimiz də ötən gün Kürdəmirdə "ASAN xidmət" mərkəzinin açılış mərasimində bildirdi ki, elə bir dövlət olmazki orada seçki tam ideal formada olsun. Təbii ki, müəyyən qədər prosedur qaydalarında, seçkinin gedişatında xırda narazılıqlar olur. Ölkə başçısı bir daha bəyan etdi ki, əgər elə məsələlər varsa, onlar MSK və yaxud başqa qurumlar tərəfindən çox ciddi şəkildə araşdırılacaq. Hamısına ciddi, düzgün və hüquqi qiymət veriləcək. Əgər ciddi pozuntulara yol verənlər olubsa, təbii ki, onlar da müvafiq qaydada cəzalandırılacaqlar. Amma ümumən götürəndə Azərbaycanda 9 fevralda keçirilmiş növbədənkənar parlament seçkiləri demokratik, şəffaf və açıq formada keçirildi. Azərbaycan xalqı, seçicisi iradəsini ortaya qoydu və istədiyi namizədə də səs verdi".

# Serbiya mətbuatı Azərbaycanda keçirilən parlament seçkilərindən yazır

***Fevralın 9-da Azərbaycan Milli Məclisinə keçirilən seçkilər Serbiya mətbuatının da diqqətində olub. AZƏRTAC xəbər verir ki, ölkənin ən iri xəbər agentlikləri və portalları bu barədə xəbərlər yayıb.***




Materiallarda həm seçkilərə hazırlıq mərhələsini, həm də real seçki prosesini əks etdirən məlumatlar əksini tapıb. Bildirilib ki, səsvermə günü vətəndaşlar fəallıq nümayiş etdirərək səs hüququndan istifadə edib. Seçkiləri 59 beynəlxalq təşkilatdan və 58 ölkədən 883 xarici müşahidəçi izləyib.

# Bu il Bakıda "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərinin açılışı nəzərdə tutulub



Hazırda ölkəmizdə 17 "ASAN xidmət" mərkəzi mövcuddur. Onlardan 5-i paytaxtda olmaqla, digərləri Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli, Şəki, Şamaxı və Kürdəmirdədir. Kürdəmirdə "ASAN xidmət" mərkəzi fevralın 12-də Prezident İlham Əliyevin iştirakı ilə açılıb. Həmçinin Bakı şəhərində əhaliyə kommunal sahədə xidmətlər göstərən 2 "ASAN Kommunal" mərkəzi fəaliyyətdədir.

Bu il, Tovuz, Ağcabədi və Balakəndə "ASAN xidmət" mərkəzlərinin istifadəyə verilməsi nəzərdə tutulub. Onların hər biri regional xarakter daşıyır. Bununla yanaşı, Bakıda "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərinin açılışı da planlaşdırılır. Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnur Niftəliyev məlumat verib. Agentliyin şöbə müdirinin sözlərinə görə, həmçinin Bakı, Gəncə və Sumqayıtda növbəti, Lənkəran, Salyan və Naxçıvanda isə ilk "ASAN xidmət" mərkəzləri tikiləcək.

***Son günlərdə Suriya mövzusu yenidən dünya mediasının başlıqlarına çıxıb və təhdid dolu konturlar almağa başlayıb. Fakt budur ki, Suriyanın şimal-qərb bölgəsində, İdlibdə Türkiyə zirehli maşınları davamlı bir axın halını alıb. Artıq 1000 ədəd tank, artilleriya, əsgərlər olan yük avtomobilləri cəlb edilib və axın hələ də davam edir. Türkiyənin Əsəd qüvvələrinə qarşı böyük bir hərbi əməliyyata hazırlaşdığı görünür.***




# Türkiyə, Rusiya və Suriya arasında gərginlik davam edir





Belə bir əməliyyatın geniş miqyaslı bir hücuma çevriləcəyi ssenarisi əvvəlcədən gözlənilməyən bir nəticə deyil. Əksinə tam mümkün bir haldır. Ərdoğan Suriya rəhbərliyinə ultimatum da verib. Fevralın 5-də o qeyd edib ki, Türkiyənin hazırda 12 müşahidə postundan ikisi rejimin cəbhə xəttinin arxasında yerləşir. Hətta vurğulanıb ki, fevral ayının sonuna qədər rejim müşahidə postlarını tərk etməsə, Türkiyə məsələləri öz əlinə almağa məcbur olacaq.

## İdlibdə Əsəd kimlə vuruşur?

Əsədin son həftələrdə Rusiya və İran qüvvələri, habelə İran tərəfdarı olan hərbçilər tərəfindən dəstəklənən İdlib bölgəsinə etdiyi hücumu, ilk növbədə, Xəyyət Təhrir əş-Şam qruplaşmasına qarşı yönəlib. Onun əsası İdlibdə yerli hökumətləri məhv edən, şəhər və qəsəbələrə vergi qoyan və razı olmayanların hamısını təqib edən "Əl-Qaidə" nin Suriya bölməsi olan "Cebhat əl-Nusra" təşkilatından olan yaraqlılardır. 20 mindən çox hərbçi təkcə bölgəyə nəzarət etmir, həm də Əsədin işğal etdiyi ərazidə partizan-təxribat reydləri keçirir.

Bunlardan əlavə, İdlibdə Suriya Milli Ordusunun, İslamçı qrupların - silahlı cihadın tərəfdarları və Əsəd əleyhinə qiyam zamanı yaradılan və hazırda Türkiyə zabitləri tərəfindən idarə olunan türkdilli millətçilər də var. Əsəd əleyhinə qüvvələr çoxdur. Əsəd üçün İdlibə nəzarət müxalifətin son məğlubiyyəti və Suriya üzərində nəzarəti bərpa etmək üçün vacib bir addımdır.

## Niyə hadisələr Türkiyəni narahat edir?

Türkiyənin məqsədi Suriyaya on minlərlə kilometrə qədər dərinliyə gedən bütün 800 kilometrlik Türkiyə-Suriya sərhədi boyunca Kürd Milli Özünümüdafiə Qüvvələrindən bir manеə bölgəsi yaratmaqdır. Ərdoğanın Suriyada belə bir bölgə yaratmaq üçün etdiyi sərhəd əməliyyatları Türkiyədə çox məşhurdur. Rəy sorğularına görə, onun bu strategiyası türklərin dörddə üçü tərəfindən dəstəklənir və prezident Rəcəb Tayyib Ərdoğanın reytinqinin artmasına öz töhfələrini verir. Bundan əlavə, Türkiyə həm "Əsəd, həm də PKK-nın təmsil etdiyi kürd qüvvələrinə qarşı çıxan türk məmurları tərəfindən idarə olunan alternativ nə isə yaratmağa çalışır. Bir sözlə, təhlükəsiz bölgə Türkiyənin kürdlərə və Əsəd rejiminə qarşı əlaqə aləti ola bilər. İdlib bölgəsi bu ərazilərə birbaşa bitişikdir və Türkiyə bunun mümkün davamı da hesab edilə bilər.

Bundan əlavə, Ərdoğan reytinqinin düşməsindən də ehtiyatlana bilər. Əks halda, yəni Suriyadakı hərbi əməliyyatlar Türkiyə daxilində etibarını artıra bilər. Lakin Ərdoğanın narahatlığının ən əsas səbəbi qaçqınlardır. Hazırda Türkiyədə 4 milyon suriyalı qaçqın var. Təbii ki, hər hansı bir ölkə iqtisadiyyatı üçün bu ağır bir yükdür. Avropa İttifaqı ölkələrində olduğu kimi və bəlkə də daha çox dərəcədə çox sayda qaçqın axını Türkiyədə kəskin siyasi böhrana və qaçqınlarla yerli əhali arasında qarşıdurmalara səbəb ola bilər ki, bunun barəsində düşünməyə, narahatlığa həqiqətən də dəyər. Türkiyə prezidentini daha çox məşğul edən də məhz budur desək yanılmarıq.

## Qarşılıqlı ittihamlar

Rusiya, Türkiyə və İran arasında Astana razılaşması və Soçidə əldə edilən razılaşmalara uyğun olaraq İdlib deeskalasiya zonasına çevrilməli idi. Bu o demək idi ki, bütün tərəflərin hərbi əməliyyatları azaldılmalı və sonra tamamilə dayandırılmalıdır. Döyüşçülərin İdlib bölgəsini tərk etməsi və ya heç olmasa Əsəd qüvvələri ilə təmas boyunca təhlükəsizlik zolağından qüvvələrini və hərbi texnikalarını çıxarması da ehtimal edilirdi. Hərçənd ki, bu bölgədə Türkiyənin müşahidə postları da quruldu.

Türkiyə və İdlibdə yerləşdirilən qüvvələr bu təşkilatı zərərsizləşdirmək üçün heç bir iş görmədilər. Bəlkə də bunun heç nəyi dəyişdirməyəcəyinə inanırlar. Bundan əlavə, Türkiyə liderləri Əsədin nə etməsindən asılı olmayaraq istənilən halda müxalifətə hücum edəcəyinə də inana bilərlər. Belə bir şübhənin səbəbi var. Səbəb odur ki, Əsəd rejimi, Əsəd əleyhinə qüvvələrin hərbi fəallığı kəskin azalsa da, rejimin işlədiyi müxalifətin əvvəllər mövcud olan bütün bölgələrini məhv etdi.

Bundan əlavə, rus hərbi obyektlərinə dronlarla hücumlar da müşahidə edilirdi. Hücumlarda digər müxalif cihadçı qruplar da iştirak edirdi. Bu, Əsəd və müttəfiqlərinin İdlibdə genişmiqyaslı əməliyyata başlaması üçün əsas verdi. Buna cavab olaraq, Türkiyə Əsədi deeskalasiya qaydalarını pozmaqda günahlandırdı. Suriya ordusunun hücumu zamanı bir sıra türk postları Əsəd qüvvələri tərəfindən mühasirəyə alındı. Təsadüfən və ya qəsdlə oldu, bunu demək çətindir, amma bəzi türk postları artilleriya hücumlarına məruz qaldı. Səkkiz türk əsgəri öldü. Fevralın 3-də Türkiyə İdlibdəki 76 Suriyalı əsgəri "zərərsizləşdirdi". Bunu Türkiyənin Milli Müdafiə Naziri Hulusi Akar da təsdiq edib.

## *Rusiya və Türkiyə:* İttifaq və qarşıdurma

Rusiya çətin vəziyyətdədir. Çünki, bir tərəfdən vasitəçi rolunu oynayır, digər tərəfdən Moskva Ankara ilə yaxınlaşmaqda və Türkiyə ilə NATO arasında boşluq yaratmaqda maraqlıdır. Bu məqsədlə Rusiya Türkiyədə nüvə stansiyası tikir, orada bir qaz kəməri çəkilişində iştirak edir və C-400 raket sistemlərini Türkiyə ordusuna satır. Rusiya-Türkiyə ticarət dövriyyəsinin həcmi 22 milyard dollara çatır. Türkiyə ilə əlaqələrin yaxşılaşdırılması Rusiya rəhbərliyi üçün Əsədin zəfərindən daha vacibdir. Buna görə Rusiya Federasiyası Dəməşqlə Ankaranı barışdırmağa çalışır.

Digər tərəfdən, Rusiya Federasiyası Suriyada Əsəd və İranın hərbi müttəfiqidir. Onlarla birlikdə İdlibdə türkiyəli yaraqlılara qarşı hücum əməliyyatlarında iştirak edir. Rusiya münaqişənin tamamilə neytral tərəfi olmadığından, vasitəçilik missiyası da çətindir. Ərdoğan dəfələrlə Rusiya Federasiyasının siyasətindən narazılığını dilə gətirib və Rusiya mediasında Türkiyə ilə bağlı tənqidi yazılar ortaya çıxıb. Müəyyən dərəcədə Rusiya və Türkiyə Suriyada bir-birlərinə qarşı çıxırlar, baxmayaraq ki, ziddiyyətlərini üçüncü tərəfin hesabına qismən həll edə bilirlər.

Rusiya nümayəndə heyəti ilə Türkiyə arasında İdliblə bağlı danışıqlar davam edərkən hazırda heç bir nəticə hasil olmayıb. Bu cür danışıqlar əvvəllər də aparılmış, sonradan pozularaq müqavilələr imzalanmışdı. Suriyadakı Rusiya-Türkiyə razılaşmalarının yaxşı işləmədiyini qeyd etmək olar. Bunun səbəbi tərəflərin fikir ayrılığı, habelə nəzarətdən kənar bir çox amillərin olmasıdır. Ancaq suallar olduğu kimi cavabsız qalır. Əsəd nə qədər davam etmək niyyətindədir? Türkiyənin ultimatumu nə qədər ciddidir? Ərdoğanın Suriyanın şimal-şərqində kürdlərə qarşı yönəlmiş Sülh mənbəyi əməliyyatının yenidən başlatma ehtimalı ilə bağlı dediklərinə münasibət necə olmalıdır? Təbii ki, bu suallara cavab verməkçətindir və öncədən nə isə söyləmək elə öncəgörmə kimi absurd səslənərdi. Ona görə də hadisələrin gedişatını izləmək daha doğru olardı və heç şübhəsiz ki, Ərdoğan kimi, Putin kimi səriştəli siyasətçilər hər şeyin məhv olmasına rəvac verməzlər. Ən azından bizim buna gümanımız var. Ümid edirik ki, ölkə başçıları gərginliyin artması marağında deyillər. Belə bir şəraitdə qarşılıqlı anlaşmaya və hadisələrin deeskalasiyasına ümid etməyə dəyər.

***İnam HACIYEV***

# Maliyyə vəsaitləri başlıca istismar və nəzarət metodudur

***Qurban onu ilk olaraq, alan şəxs tərəfindən satıla bilər və bu yenidən satılma nəticəsində borc yenidən başlaya bilər. Qurban ilk əvvəldə onun ödənilməsinin heç vaxt mümkün olmayacağını bilmədən, bu borcu qəbul etmiş ola bilər. Təcrid olunma Qurbanların istismar vəziyyətindən yayınmayacağını təmin etmək məqsədilə qurbanlara nəzarət etmək üçün düşünülmüş şəkildə təcrid etmədən istifadə oluna bilər. Qurbanlar digər insanlardan ayrı saxlanılır və onlara başqa bir şəxslə ünsiyyətə girməyə imkan verilmir. Qurbanlar həmçinin nəqliyyat xətlərinin olmadığı yerdə fiziki təcrid olunmuş şəkildə saxlanıla bilər.***

Bir çox qurbanlar aparıldıqları dövlətin dilində danışa bilmirlər və insan alverçisi onlara dili öyrənmək üçün imkan yaradılmamasını təmin edir. Onlar bir yerdən başqa yerə aparıla bilər, buna görə də onlar hər hansı bir yerdə əlaqələr qura bilmirlər. Onlara telefon və ya digər rabitə vasitələri verilməyə bilər. Bu cür təcridetmə metodları qurbanı insan alverçilərindən daha çox asılı vəziyyətə salır. Güctətbiq etmə və zorakılıq bəzi hallarda, qurbanlara nəzarət etmək və onların istismar vəziyyətindən yayınmamalarını təmin etmək üçün zordan həddən artıq istifadə edilə bilər. Digər qurbanları istismar vəziyyətindən çıxacaqları halda onların da zorakılığa məruz qalacağına inandırmaq üçün də qurbana qarşı zorakılıqdan istifadə edilə bilər. Qurbanlara onların özlərinə və ya ailə üzvlərinə qarşı zor tətbiq etmək hədəsi ilə nəzarət oluna bilər. Bu, xüsusilə də qurban insan alverçisinin onun ailəsini tanıdığını bildiyi halda daha təsirli olur. Qurbanlar onların ailələrinə zərər vurula biləcəyinə inanaraq, bunun həqiqət olduğunu bilərək və ya digər şəkildə bunu qəbul edərək istismar vəziyyətində qalırlar. Ailəyə xəbərvermə İnsan alverciləri qurbanlara onların fahişəlik və ya məcburi əməklə məşğul olduqları barədə ailələrinə xəbər verəcəklərini deyirlər. Bu, xüsusilə də qurbanların onlara qarşı hörmətin və ya ailə və ya icmada nüfuzlarının itəcəyini bildikləri kollektivist mədəniyyətlərdə təsirli olur. Bu nəzarət metodu, həmçinin, qurbanın dini keçmişi olduğu halda tətbiq edilə bilir. Sənədlərin alınması qurbanın sənədlərinin insan alverçisi tərəfindən onun əlindən alınması demək olar onun istismar vəziyyətindən çıxmasını mümkünsüz edir. Bu, adətən şəxs təyinat ölkəyə gəldikdən sonra edilir. Sənədlər olmadan, onlar qaçmağı mümkünsüz edən şəxsiyyəti təsdiq edən heç bir rəsmi sənədə malik olmurlar. Maliyyə zorakılığı maliyyə vəsaitləri başlıca istismar və nəzarət metodudur. Miqrasiya prosesində istismar erkən vəsaitlər potensial miqrantlar viza xidmətləri ödəniş edərkən başlayır. Fəhlələr bunlar və heç vaxt göstərilməyən digər xidmətlər üçün ödəniş edirlər. İş: Bosniya və Herseqovinadan olan fəhlələr Fəhlələr Azərbaycanda istismar olunmuşlar, belə ki, onların çoxu, onları bu işə cəlb edən şəxsə viza üçün əlavə 250ABŞ dolları ödəmişdilər. Onlar ölkəyə gəldikdən sonra yenə də turist vizasına görə ödəniş (40 ABŞ dolları) etməli oldular və onların əksəriyyətinə heç vaxt verilməyən iş vizaları vəd olunmuşdu. ABŞ BİA 2010 Avropa və Avrasiya regionunda yaşlı kişilərin alveri, səh. 19. Bu ödənişlər istismarın başlanğıcıdır, belə ki, bir çox araşdırmalar onu göstərir ki, istismarçılar fəhlələrə nəzarət etmək üçün məcburi asılılıqlar sistemini yaradırlar. Miqrantlara qarşı ən çox edilən hədə şikayət etdikləri təqdirdə onlara pulun ödənilməyəcəyi ilə hədələmədir. Ödəmək vədi çox vaxtı istismarçı iş yerlərində qalmaq üçün səbəb kimi göstərilir və saxlanılan məvaciblərin ödənilməyəcəyindən qorxma ən çox narahatlıq doğuran məqam olur. Məvaciblərin ödənilməməsi miqrantların məcburi əməyinin istismarı hallarına, milli orqanlar tərəfindən əsasən qaçaqmalçılıq və ya milli immiqrasiya və ya əmək qanununun pozulması kimi baxılır. Bu, qurbanları cinayətkar vəziyyətinə qoyan yanlış yanaşmadır. Burada diqqət yanlış hədəfə yönəlir və insan alverçiləri və insan alveri ilə mübarizədə maneəyə çevrilir. İstismarçılar qurbanlara onların məvaciblərini ödəməyərək onların getmək imkanlarını məhdudlaşdırır və onlarda gedəcəkləri təqdirdə onlara verilməli olan pulların ödənməyəcəyi ilə bağlı qorxu yaradırlar. İnsan alverçiləri həmçinin cərimələr və məvaciblərdən qida, qalmaq üçün yer və nəqliyyata görə pul tutulması ilə maliyyə cəzalarını təyin edə bilərlər. Bu, qurbanların aldıqları məvacibin çox az olması səbəbindən onların istismar vəziyyətindən çıxa bilməmələrini təmin edir. BƏT-in araşdırmaları onu üzə çıxarmışdır ki, məcburi əməyə cəlb edilmiş əməkçi miqranların 88.7 faizinin məvacibləri əlindən alınmışdır və bir çox hallarda məvaciblər ümumiyyətlə ödənilməmişdir və ya təsadüfi cərimə haqlarına görə pul tutulmaları o qədər çox olmuşdur ki, yekunda fəhlələrə çox cüzi ödənişlər edilmişdir. Fəhlələr əvvəldə bu barədə məlumatsız olduqları üçün belə görünür ki, işəgötürənlərin onlara razılaşdırılmış məvacibi ödəmək niyyəti olmamışdır, bu da onların aldadılması, BMT-nin İnsan Alverinə dair Protokoldakı şərtlərə uyğun gəlmə deməkdir. 145 Azadlığın itirilməsi Bu, hərəkət azadlığının verilməsindən imtina və ya onun məhdudlaşdırılması və ya qurbanların müvafiq məkanlarda saxlama bölmələrinə saxlanılmasına gətirib çıxarır. Ukraynadan insan alveri ilə bağlı gətirilən kişilərin 92 faizində hərəkət azadlığının verilməsindən, ümumiyyətlə, imtina edilmişdir və ya buna yalnız müşayiət edildikləri halda icazə verilmişdir və onlara silahlı mühafizəçilər nəzarət edirdilər və onlar olduqları məkanı tərk etmək üçün yazılı icazə almalı idilər.

İnsan alverinin qurbanlara təsiri insan alveri qurbanlara fiziki və ya psixoloji təsir göstərə bilər, onlar zorakılığa və zərərli maddələrdən sui-istifadəyə məruz qalmış və ya təcrid edilmiş ola bilərlər. Fiziki əlamətlərə travma və sağlamlıqla bağlı əlamətlər, o cümlədən, HİV/QİÇS, cinsi yoll keçən xəstəliklər, zorakılıq, yorğunluq və çəki itkisinin səbəb olduğu fiziki zədələr aid edilə bilər. Zorakılıq həm istismara qədər, həm də istismar vəziyyətində baş verə bilər. Bura fiziki zorakılıq (hücumlar və hədə-qorxular və ya silahla xəsarət yetirmələr); cinsi zorakılıq (öz iradəsi əleyhinə hansısa seksual xarakterli hərəkətləri etməyə məcbur edilmə və ya bunun üçün qorxudulma), habelə, hədələmələr və azadlığın və ya nəzarətin itirilməsi aid edilə bilər. Bu zorakılığın təsiri yorğunluqdan və çəki itkisindən tutmuş nevroloji əlamətlərə qədər sağlamlıqla bağlı davam edən problemlərə, habelə, psixi sağlamlıqla bağlı problemlərə gətirib çıxara bilər. Bu, həmçinin, qurbanın geri qayıtmasına, onların təcrid olunmasının gücləndirilməsinə və onların insan alverçilərindən daha çox asılı vəziyyətə düşmələrinə səbəb ola bilər. Qurbanlar, səciyyəvi olaraq, istismar vəziyyətində məruz qaldıqları cinsi zorakılıq və məcbur edilmə nəticəsində, arzu edilməyən cinsi və reproduktiv sağlamlıqla bağlı problemlərdən əziyyət çəkə bilərlər. Bura onların qazanc məqsədilə cinsi xidmətlər göstərmələri, cinsi zorakılıq, cinsi əlaqəyə məcbur edilmə halları və qorunmadan cinsi əlaqə səbəbindən cinsi yolla keçən xəstəliklərə və ya HİV / QİÇS-ə yoluxma riski də aiddir.

Depressiv əlamətlərə özünü çox kədərli, dəyərsiz hiss etmə və gələcək barədə ümidsizliyə qapanma və hər şeyə marağı itirmə aid edilə bilər. Özünü təcavüzkarcasına aparma əlamətlərinə özünü narahat hiss etmə və ya tez əsəbiləşmə, özündən çıxma və tez məyus olma aid edilə bilər. İnsan alverinin qurbanlarında, həmçinin, təkrar baş verə bilən travmadan sonrakı gərginlik, çox gərgin, qorxuducu və kədərləndirici hadisələr səbəbindən baş verən narahatlıq halları müşahidə edilir. Travmadan sonrakı gərginlik özünü aşağıdakılarla büruzə verə bilər (i) travmatik hadisələrə yenidən məruz qalma; bura qorxuducu hadisələr barədə fikirlərin və ya yaddaşın yenidən qayıtması, ağrılı və ya travmatik hadisəni xatırladıqda qarabasmanın və ya kəskin emosional və ya fiziki reaksiyaların yenidən baş verməsi. 149 (ii) fiziki oyanış; bura tez özündən çıxma və yuxu pozğunluğu ilə tez qorxma, fikrini cəmləməkdə çətinlik və əsəbi olma və qızışma aiddir. (iii) çəkinmə və hissiyatsızlıq; bura gələcəyin olmadığını hiss etmə, özünü təcrid olunmuş / tənha hiss etmə, emosiyanın olmaması və ya ən travmatik və ya ağrılı hadisələrin hissələrini yadda saxlamaq imkanının olmaması. Özünü təcavüzkarcasına aparma, özünüidarəetmənin itməsi, sosial reinteqrasiyaya qədər bərpa və xatırlama da daxil olmaqla, bərpanın bir neçə mərhələsi ola bilər. Qurbanlar məcburetmə münasibətlərdə üstünlük təşkil edən cəhət kimi sistematik şəkildə istismara cavab olaraq bir sıra sağqalma strategiyalarını qəbul edə və davanışlarını istismarı azaltmaq üçün uyğunlaşdıra bilərlər. Üç əsas sağqalma strategiyasına çəkinmə, insan alverçisi ilə eyniləşdirmə (“Stokholm sindromu”) və hissiyatsızlıq aiddir. Cinayət mühakimə sahəsində təcrübi işçilər üçün fəsadlar qurbanın davranışına aşağıdakılar aid edilə bilər: * Araşdırma aparan şəxsə və ya prokurora qarşı təcavüzkarcasına davranma. Qurban öyrənmiş ola bilər ki, insan alveçilərinin hökmranlığını təhlükə altına alan hər hansı bir məqam birbaşa zorakılığa gətirib çıxara bilər. O, buna görə də, hüquq-mühafizə orqanları və ya məhkəmə orqanları ilə hər hansı bir əməkdaşlıqdan yayına bilər; * İstintaq və ya ittiham qurumu ilə əməkdaşlıq etməmə; * Yaddaşın itməsi aşağıdakılarla nəticələnən xətalar və fikir ayrılıqları: - Müxtəlif vaxtlarda dəyərləndirmədə dəyişikliklər - Təfsilatları xatırlaya bilməmə - Travmatik hadisənin əsas təfsilatlarını xatırlama, amma geyim, otaqla və ya nəqliyyat vasitələrinin təsviri kimi əlavə təfsilatları xatırlamama - Həyat üçün ən əsas hədələr olan hadisələr haqqında düşünə bilməmə (məsələn, şüur üzərində nəzarəti itirmə) * Düşüncəsizlik kimi görünən qızışma halları; Oğurlanmış təbəssümlər: * Davam edən travma və nəzarət olma vəziyyətindən çıxdıqdan sonra yanılmalar; * Açıq-aşkar “təhlükəsiz” vəziyyətdə olsa da, narahatlığın davam etməsi; * Gözlənilə bilən daha çox fasilələrə, istirahətə və yuxuya ehtiyac duyma; * Bərpa və xatırlama. Bir çox qurbanlar üçün bərpa müddəti olur, belə ki, onlar başlarına gələnləri nəzərdən keçirirlər. Qurbanlar hadisələri bir daha fikirləşirlər və başlarına gələnlərlə barışmağa, baş verənlərə izah tapmağa və ya hadisəni izah etməyə çalışırlar. İnsan alveri vəziyyətinin təsiri qurbanın emosional və intellektual imkanlarını azaldır. Bu, onların hüquqi proseslərdə effektiv şəkildə iştirak etmək imkanına təsir göstərərək, onun ifadə vermək imkanının qarşısını ala və ya hüquqi proseslərdə şahid kimi onların etibarlılığına və ya inamına təsir göstərə bilər. İnsan alveri qurbanlar arasında şüurlu şəkildə hərəkət etmə imkanlarına xələl gətirərək onların cinayət barəsində təfsilatlı dəlillər vermə dərəcəsinə və təqib prosesində əməkdaşlığa dair necə qərar vermələrinə təsir göstərə bilər. Qurbanın öz mədəni çərçivəsini müəyyənləşdirmək və başa düşmək vacibdir. Əsas meyar mədəniyyətin individualist və ya kollektivist olmasıdır.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

# Radikalların seçki uğursuzluqları və yanlışlıqları

***Azərbaycanda müstəqillik tarixində çoxlu sayda prezident, parlament və bələdiyyə seçkiləri keçirilib. Bu baxımdan, xalqımızın kifayət qədər seçki təcrübəsi var. 9 fevral parlament seçkilərilə vətəndaşlarımızın təcrübəsi bir az da artdı və hətta ölkə vətəndaşı daha bir yeniliyin də şahidi oldu və kütləvi maraq da doğurdu. Sual oluna bilər ki, nədi bu yenilik? Əslində, seçki prosesinə, parlament seçkilərinə heç zaman müşahidə olunmayan bu qədər çox sayda vətəndaşın namizəd olaraq qatılması qeyd olunan marağın isbatıdır.***

Yenilik dedikdə çoxları, məsələn radikal müxalifət düşərgəsi tərkibin yenilənməsi kimi başa düşür. Radikallar elə zənn edirlər ki, parlamentdə yenilik dedikdə, bu zamana qədər seçilən bütün deputatların Milli Məclisdən uzaqlaşdırılıb, yalnız onların nümayəndələrinin millət vəkili seçilməsi başa düşülməlür. Amma qeyd etdiyimiz kimi, bu, onların ağlının məhsulu, onların düşüncəsidir və bu düşüncə kökündən yanlışdır. Onların ən böyük yanlışlıqları ondan ibarətdir ki, tərkibi dəyişməklə mahiyyətin olduğu kimi qalmasının heç də dəyişiklik sayılmadığını anlaya bilmədilər. Başa düşmədilər ki, ən böyük dəyişiklik tərkib deyil, mahiyyət dəyişikliyidir və bu mahiyyət dəyişikliyi sayəsində də aparılan islahatlara Milli Məclis adekvad cavab verə biləcək, ölkə vətəndaşının qayğılarını, həlli vacib məsələlərini işıqlandırmaq imkanı əldə edəcək.

Seçkiqabağı kampaniyanı xatırladıqda görürük ki, namizədlər, ələlxüsus hakim partiyanın namizədləri seçicilərlə mütəmadi görüşlər keçirir, geniş ünsiyyət qururdular. Əslində, bu ünsiyyət heç də sadəcə seçki prosesi üçün vacib hesab olunmur. Ən çox ona dəlalət edir ki, millət vəkili xalqın arasındadır və xalq ona etibar edir. Eyni zamanda, seçiləcək namizədlərin əvvəlcədən xalqla yaxın təması gələcəkdə onun bu xalqın vəziyyətindən, ehtiyaclarından xəbərdar olması deməkdir. Bu da nəticə etibarı ilə ictimaiyyəti, Azərbaycan cəmiyyətini maraqlandıran məsələlərin dövlət, Milli Məclis səviyyəsində işıqlandırılması, həlli deməkdir ki, yenilik də məhz burur.

Digər tərəfdən bir məsələni də diqqətə çatdırmaq yerinə düşərdi ki, 9 parlament seçkiləri öncəsi namizədlərin xalqla yaxından təması, yekunda onlara olan etimad, etibar və seçkilərdə qələbələri real fəaliyyətin virtual "qəhrəmanlıq"dan daha məqsədəuyğun və effektiv olduğunu təsdiqlədi. Daha açıq desək, ölkə vətəndaşı "virtual pəhləvanlıq" kimi bir fəaliyyəti qəbul belə etmədi. Azərbaycan vətəndaşı sosial şəbəkələrdə yalançı vədlər verən, özünü qəhrəman kimi sırımağa çalışan namizədlərə deyil, real şəkildə ölkə vətəndaşı ilə görüşən, onun qayğıları ilə maraqlanan, etimadını qazanan və ictimai maraqlara xidmət edən namizədlərə üstünlük verdi, seçim zamanı da bu



əsas meyara çevrildi.

İslahat, yenilik sözünü yanlış anlayan müxalifət düşərgəsinin radikalları bir anda "mövsümi aktiv fəaliyyət" nümayiş etdirməyə, sosial şəbəkələrdə "fəallığa" başladılar. Yenilik sözünü eşidən blogerlər belə namizədliklərini irəli sürdülər və seçki kampaniyasına qoşuldular. Burda qeyri-adi, yaxud qeyri-qanuni heç nə yox idi deyə, ədalətli şəkildə hər kəsə seçki kampaniyasında iştirak etmək hüququ verildi, bərabər şərait belə yaradıldı. Amma bu heç də o demək deyildi ki, elə ucdantutma hamı deputat mandatı əldə edəcəkdi. Bəzi blogerlərdə çaşqınlıq yaranmışdı və elə zənn edirdilər ki, hamısı bir ucdan seçiləcək və Milli Məclisdə özlərinə yer qazanacaqlar. Amma nəzərə almaq lazım idi ki, deputat mandatını məhdud sayda insan əldə edə bilər və heç də 1314 nəfərin hamısı millət vəkili ola bilməz. Onların bu yanlış gözləntiləri öz yanlışlığını təsdiq etdiyi anda, yəni seçkilər bitdikdən və onların seçilmədiyi bəlli olduqdan sonra bir aqressiya mühiti formalaşdı. Formalaşan bu aqressiya özü də onların yanlışlığının təsdiqidir. Əks halda, bu məğlubiyyətlərini anlayışla qarşılayardılar. Anlayışla qarşılayardılar ki, Milli Məclis bloger, sosial şəbəkə iştirakçısı məclisi deyil və sosial şəbəkələrdə cızma-qara yazmaqla millətin vəkili olmaq arasında kəskin fərq var.

İndi Mehman Hüseynov kimi qaragüruhçu, demokratiya sözünü anarxiya ilə qarışdıran istifadəçi parlament seçkilərini özü üçün münbit şərait hesab edirdisə, o da yanıldığını dərk etmədidir. Doğrudur, özü hamıdan yaxşı bilirdi ki, onun millət vəkili olmaq şansı sıfıra bərabərdir və məhz buna görə də ancaq seçki prosesindən divident qazanmağa köklənmişdi. Məğlubiyyətini tam şəkildə anlayan və qəbul edən Mehman seçki məntəqəsində hay-küy qoparmağı özünə qazanc bilirdi və dərk edirdi ki, bundan başqa yolu da yoxdur. Bu seçkilər ona da, onun timsalında digərlərinə də layiqli cavab verdi və bildirdi ki, "bloger", "siyasi fəal" kimi "statuslar" sosial şəbəkədən kənarda, ölkənin real siyasət məkanında hansısa çəkiyə malik deyil.

Əgər hansısa bloger, yaxud özünü müxalifətçi hesab edən radikal seçki prosesində rast gəldiyi, ya da müşahidə etdiyi qüsuru siyasiləşdirmək istəyirsə, yenə də bərk yanılır. Əvvəla, istənilən seçkidə qüsurların olması normaldır və heç bir dünya ölkəsində qüsursuz seçkidən danışmaq mümkün deyil. Digər tərəfdən, əgər MSK bu qüsurları danarsa, faktları görməzliyə vurarsa, bu zaman ciddi neqativ hal sayıla bilər və yalnız o zaman məsələni siyasiləşdirməyə haqq qazandırmaq olar. Məsələ burasındadır ki, axı MSK pozuntu faktlarına olduqca həssas yanaşır və bütün pozuntuların nəzərə alınacağını və günahkarların cəzalandırılacağını da bəyan edir. Belə olan halda məsələnin siyasiləşdirilməsi yolverilməzdir və buna kimsənin cəhd etməsi də digər bir yanlışlıqdır.

Başqa bir məqam da bu anda diqqəti cəlb etməyə bilmir. Beləki, əvvələ seçki keçirilmədən öncə seçki bitdikdən sonra etiraz aksiyasının keçirilməsi barədə dağıdıcı ünsürlərin anonsları da çox absurd səslənir. Soruşmaq eyib olmasın, bunlar əvvəlcədən hardan bilirdilər ki, seçki pozuntuları, qüsurlar olacaq və buna əvvəlcədən hansı məntiqlə hazırlıq görülürdü? Bunlar müxalifətçidirlər, blogerdirlər, yoxsa falçı? Elə gəlmirmi ki, bütün bunlar bəhanə axtarışı, yaxud qərəzli yanaşmadır? Yaxud, seçkidən sonra hardasa toplaşıb narazılıq bildirməklə hansı nəticəyə nail olmağa çalışırlar bunlar? Əvvəlcədən qondarma "baykot" nə idi, seçkidən sonrakı narazılıq nədir? Bunlar bir müstəviyə sığmayan məsələlərdir. Doğrudur, seçkiyə namizəd olaraq qatılanların sayı o qədər çox oldu ki, radikal müxalifətin "baykot" bəhanələri, uduzacaqlarına öncədən don geyindirmələri ictimai diqqətdən belə tamam kənarda qaldı. Bunların "baykot" tendensiyası hər zamankından daha mənasız görkəm aldı. Onu da qeyd etmək yerinə düşərdi ki, bu "baykot" onlar üçün mənasız olduğu qədər, həm də onların hadisələrin nəbzini tuta bilmədikləri baxımından cəmiyyət üçün mənalı oldu. Seçkidən sonra isə keçirilən etiraz aksiyaları məğlubiyyətə don geyindirməkdən, rüsvayçılıqdan sığortalanmaqdan başqa bir şey deyildi. Bunun da uğursuz olduğunu dərk edənlər, mənasız, nəticəsiz olduğunu anlayanlar sonda polisin bu narazılığa nəzarət etməsini bəhanə gətirmək kimi çıxış yolu seçdilər. Halbuki, bu da növbəti uğursuzluq və yanlışlıqdır. Çünki, Azərbaycan polisi aksiya keçirənlərə mane olmurdu və əslində onların özlərinin, eləcə də, bütün ictimaiyyətin təhlükəsinin qarantı kimi iştirak edirdi. Polisin vəzifəsi asayişi qorumaq, təhlükəsizliyi təmin etmək olduğunu dərk etməyənlər buna da don geyindirməyə çalışa bilərlərsə də, nəticədə bu istiqamətdə də səhvlərini anlamalı, heç olmasa etiraf etməlidirlər.

Kimlərinsə, hansısa radikal qüvvələrin, yaxud düşmən dəyirmanına su tökməyə çalışanların, ölkədəki islahatlara, keçirilən seçkilərə kölgə salmağa, qara yaxmağa çalışanların uğursuz cəhdləri olsa da, bu gün gözlənilən ciddi dəyişikliklərə cəmiyyətin münasibətini əks etməyə yüksək mənəvi-siyasi haqqı olan bir Milli Məclisin formalaşdığı günün reallığıdır. Formalaşan Milli Məclisin, seçilən millət vəkillərinin islahatların daha sürətlə reallaşmasını, xalqın rəyini, istəyini təmin edəcəyi isə təkzib edilə bilməz.

**İnam HACIYEV**

# "MSK-nın qarşısında qarışıqlıq yaratmağa çalışanların ipləri öz əllərində olmayanlar idi"



Fevralın 9-da Azərbaycanda keçirilən parlament seçkiləri yerli və xarici müşahidəçilərində qeyd etdiyi kimi, azad və ədalətli şəraitdə keçdi. Amma buna baxmayaraq bəzi şəxslər təxribat törətməyə, qarşıdurma yaratmağa cəhdlər göstərirlər. Misal olaraq, ötən gün öyrədilmiş, siyasi müxalifətin təşkilatçılığı ilə bir qrup adam MSK-nın qarşısında pozuculuq aktı törətməyə, hətta zor gücünə içəri daxil olaraq qarışıqlıq yaratmağa çalışdı.

Söhbət etdiyimiz müsahiblərimiz MSK-nın qarşısında aksiya keçirənlərin mənəviyyatlarında və əxlaqlarında problemlərin olduğunu bildirdilər. Bizimlə söhbətində "Yurddaş" partiyasının sədri Mais Səfərli birmənalı şəkildə bildirdi ki, 9 fevral parlament seçkiləri azad və ədalətli şəraitdə keçdi: "İstər seçicilər, istərsə də öz namizədliyini irəli sürmüş insanlar həddindən çox fəal idilər. Bu özü müsbət bir göstəricidir. Bu, əhalinin Milli Məclisin formalaşmasına olan münasibəti idi. Milli Məclis nədir? Azərbaycanda qanunverici hakimiyyət, qanunverici hakimiyyət isə dövlət hakimiyyətinin üç əsas qanadından biridir. Yəni bu bir daha göstərir ki, seçicilər və seçkidə namizəd kimi iştirak edənlər dövlətimizin taleyinə biganə deyillər. Seçicilərin və seçkilərdə iştirakçıların bu dərəcədə fəal olması Azərbaycan cəmiyyətinin həm də siyasi baxımdan çox irəli getdiyini göstərir". M.Səfərli onu da qeyd etdi ki, insanlar öz dövlətinin taleyinə biganə deyillər və Konstitusiyamızda göstərildiyi kimi, hakimiyyətin mənbəyi xalqdır: "Yəni hakimiyyəti xalq formalaşdırır. Bu özü çox yaxşı haldır. Qaldı ki, bu gün bu prosesdən istifadə edib xüsusilə də seçkilərdə iştirak etməyən, seçkiləri müşahidə etməyən radikal müxalifətin bir kəsiminin daha da bu məsələlərdən istifadə edib yalan fikirlər yayması bu yol verilməzdir. Dediyim kimi, bu seçkilər hər bir kəsin gözünün önündə keçdi, hər bir kəs bu prosesdə iştirak etdi. Yəni hər bir Azərbaycan vətəndaşı istər seçici qismində, istərsə də namizəd qismində bu seçkilərdə fəal şəkildə iştirak etdi. MSK-nın qarşısında pozuculuq aktı törətməyə, hətta zor gücünə içəri daxil olaraq qarışıqlıq yaratmağa çalışanlar isə, ipləri öz əllərində olmayanlar idi. Bu cür hallara qarşı sərt tədbirlər görülməlidir".

"Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov da "Səs" qəzetinə açıqlamasında bildirdi ki, müxalifətin təxribatlar törətmək adətidir. Çünki xarici ağaları belə istəyir: "Mən hələ seçkilərdən öncə mətbuatda bildirmişdim ki, seçkilərə start verildiyi andan siyasi oyunbazların seçdikləri "taktika" eynilə əvvəlki seçkilərdə istifadə etdikləri üsullara əsaslanır və hansı mərhələdə bunların hansı addımlar atacaqları da əvvəlcədən bəlli idi. Təəssüf edirəm ki, fikirlərimdə yanılmadım və seçkinin bütün mərhələlərində verdiyim proqnozlar təsdiqini tapdı. Təəssüflənsək də, təəccüblənmirik. Ona görə ki, heç bir strategiyası, düşünülmüş, reallıqlara əsaslanan taktikası olmayan siyasi qüvvə (əgər bunlara siyasi qüvvə demək olarsa) özünü sığortalamaq, gündəmdə qalmaq, var olduğunu gözlərə kül üfürməklə göstərməyə çalışmaq məcburiyyətindədir. Əks-təqdirdə, xaricdəki anti-Azərbaycan qüvvələrlə bazarlıqları baş tutmaz. Belə də onların başqa çıxış yolları yoxdursa, nə etməlidirlər? Seçki milyonlarla insanın iştirak etdiyi kütləvi tədbirdir. On minlərlə insanın komissiyalarda təmsil olunduğu və milyonlarla insanın iştirak etdiyi tədbirdə hansısa qüsurun olmamasını gözləmək, sadəcə, mümkün deyil. Ancaq beş-altı seçki məntəqəsində beş-on nəfər tərəfindən bilərəkdən, ya bilməyərəkdən yol verdiyi qüsuru ümumən seçkilərin yarıtmaz təşkili, şəffaflıq və demokratiyanın olmaması kimi səciyyələndirənlər, birmənalı olaraq yanılırlar və kimlərinsə maraqlarına xidmət edirlər. Xüsusilə, ölkə başçısı hər bir qüsurun ciddi araşdırılması və təqsirkarların mütləq şəkildə cəzalandırılması ilə bağlı verdiyi tapşırıqlar ərəfəsində belə çıxışlar etmək, insanları kütləvi aksiyalara çağırmaq yolverilməzdir. Diqqət edirsinizsə, bir dairədən iki, bəzən üç nəfər eks-namizəd hay-küy salır ki, məhz o seçilib və sənədləri saxtalaşdırıblar. Bu necə ola bilər axı? Mən şəxsən seçkilərdə qüsurlara yol verən dairə və məntəqə seçki komissiyalarının obyektiv araşdırılması, təqsirkarların, ən azı seçki prosesindən həmişəlik uzaqlaşdırılması tərəfdarıyam. Prezident İlham Əliyevin də vurğuladığı kimi, əgər belə cəzalar verilməzsə, bu, gələcəkdə də davam edə bilər ki, o da dövlət və dövlətçilik baxımından bizə yaxşı nəsə vəd etmir. Əminəm ki, biz bunun şahidi olacağıq. Sonda bəzi seçkilərdə uduzan namizədlərə bir tövsiyəm var. Mübarizə aparan tərəflərdən yalnız biri qalib olur. Seçki mədəniyyəti tələb edir ki, uduzan məğlubiyyətini qəbul etsin, gələcək seçkilərdə qalib olmaq üçün yeni yollar arasın. Bir sözlə, uduzmaq mədəniyyəti də insanlığın əsas amillərindəndir və bunun varlığını unutmasınlar".

**GÜLYANƏ**

# İnsan alveri ilə mübarizə sahəsində QHT-lərin rolu

***Uşaqların repatriasiyası AŞ Konvensiyasının "İnsan alveri qurbanlarının repatriasiyası və qaytarılması" başlıqlı 16-cı maddəsində deyilir: "7."Riskin və təhlükəsizlik dərəcəsinin qiymətləndirilməsi nəticəsində uşaq alveri qurbanlarının geri qaytarılmasının onların mənafeyi baxımından məqsədəuyğun olmadığı müəyyən edildiyi təqdirdə, uşaq alveri qurbanları həmin dövlətə geri qaytarılmamalıdır".***

İnsan alveri ilə mübarizə sahəsində, QHT-lər həyata keçirilən tədbirlərdə boşluqları doldurmalıdırlar. Bütün iştirakçılar arasında əməkdaşlıq vacibdir. QHT-lər insan alveri ilə mübarizə sahəsində bütün iştirakçılarla əməkdaşlıq etməlidirlər və digər iştirakçılara öz dəstəklərini təklif etməlidirlər. QHT-lər insan alverinin qurbanlarının müəyyənləşdirilməsinə və lazımi dəstəyin, o cümlədən, hüquqi, psixoloji və sosial dəstəyin göstərilməsinə və insan alverinə məruz qalmış şəxslərin təhlükəsiz şəkildə istiqamətləndirilməsinə və (re)inteqrasiyasına dəstək göstərə bilərlər. QHT-lər, həmçinin, insan alverinə məruz qalmış şəxslərin hakimiyyət orqanları ilə əməkdaşlığa dair qərar vermələrində kömək edə bilərlər. Birbaşa sosial dəstək xidmətlərinə və insan alveri qurbanları ilə birbaşa əlaqəyə görə, QHT-lər xidmət göstərdikləri tərəflərin inamını qazana bilərlər. Bu, çox vaxt onlarda ifadə vermək istəyinin yaranmasına və məhkəmə də daha yaxşı şahidlərin olmasına gətirib çıxarır. QHT-lərin insan alverinin potensial qurbanlarına təklif edə biləcəyi xidmətlərə yaşamaq üçün yer, tibbi xidmətlər, məsləhətlərin verilməsi, təhlükəsizlik, immiqrasiya ilə bağlı məsləhətlərin və hüquqi məsləhətlərin verilməsini təmin etmə aiddir. La Strada International 135 Beynəlxalq La Strada Birliyi, insan hüquqlarına hörmətlə yanaşılmasını təşviq etməklə dünyada insan alveri hallarının olmaması üçün fəaliyyət göstərən aparıcı Avropa QHT şəbəkəsidir. Şəbəkə ilkin səviyyədən başlayaraq fəaliyyət göstərən və təşviqat, qarşısını alma və insan alverinə məruz qalmış şəxslərə, və risk altında olan qruplara öz hüquqlarını həyata keçirməyə imkan yaratmaq məqsədilə sosial dəstək üçün tədbirlər həyata keçirən səkkiz müstəqil üzv təşkilatlardan ibarətdir (Azərbaycanda üzv təşkilat yoxdur). http://lastradainternational.org 3.12 Konfidensiallıq insan alverinin qurbanları ilə bütün ünsiyyət məxfi saxlanılmalı və hər hansı məxfi məlumatlarla təhlükəsiz şəkildə davranılmalıdır. İnsan alverinin qurbanlarına münasibətdə öhdəliklər daşıyan qurumlar, bu şəxslərin onlar barəsində məlumatların toplanılmasının məqsədi və onlardan istifadə, habelə onların özlərinin bu məlumatlara çıxış hüququ ilə bağlı tam məlumatlı olmalarını təmin etməlidirlər. Onlar həmçinin qurbanın onun barəsində şəxsi məlumatların xüsusi məqsədlər və istifadə üçün açıqlanmasına icazə verən yazılı və tam məlumatlı razılığı olmadıqda, şəxsi məlumatların açıqlanmamasını təmin etməlidirlər. İnsan alveri qurbanları ilə telefon, poçt xidməti və şəxsən aparılan bütün ünsiyyət təhlükəsiz və məxfi olmalı və qurbanla bağlı məlumatlar, o cümlədən onların adı və yeri açıqlanmamalıdır. Qurbanın toxunulmazlığı və konfidensiallıqla bağlı bütün tələblərə riayət olunmasını təmin etmək üçün sistemlər mövcud olmalıdır. Suzanne M. Leone, Zorlanan qurbanların şəxsiyyətlərinin qorunması: şəxsi həyatın toxunulmazlı və ilkin düzəliş arasında tarazlıq, 27 New Eng. L. Rev. 883, 909-10 (1993) Qurbanın özü barəsində informasiyaya nəzarət etmək hüququ "hər bir insanın dünyaya təqdim etdiyi özünü formalaşdırmaq hüququnun əsas hissəsini təşkil edir. Kiminsə iradəsi əleyhinə onun şəxsiyyəti barədə özəl faktların ictimaiyyətə açıqlanması, həmin faktları yalnız qohumları və ya dostları ilə ən qərəzsiz şəkildə bölüşmək səylərinə zidd olaraq, ən ciddi pozuntudur (Laurens H.- dən sitat, Amerika Konstitusiya Qanunu z12-14, at 650 (1st ed. 1978)); Birlik Platt Platta qarşı, 404 A.2d 410, 429(Ali Məhkəmə 1979). "Şəxsi həyatın toxunulmazlığı şəxsin öz münasibətlərini, inamlarını, davranışını və rəylərini bölüşəcəyi və digərlərindən bunları qəbul edəcəyi vaxtı və şəraiti, ən vacibi bunu hansı həcmdə edəcəyini müəyyənləşdirmək və seçmək azadlığından daha 134 Hoff, S. Azərbaycanda insan alveri ilə mübarizə və onun qarşısının alınmasına dair layihə. İnsan alveri ilə mübarizədə və insan alverinin (təxmin edilən) qurbanlarına dəstəyin göstərilməsində QHT-lərin rolu.

Uşaqlarla bağlı konfidensiallıq BMT-nin Uşaq hüquqları haqqında Konvensiyasının "Şəxsi həyatın toxunulmazlığı hüququ" ilə bağlı 16-cı maddəsində deyilir: "Hər bir uşağın şəxsi həyatının toxunulmazlığı hüququ vardır. Qanun uşağın şəxsi həyatı, ailə həyatını və mənzil toxunulmazlığını qorumalıdır" AŞ Konvensiyasının "Şəxsi həyatın mühafizəsi" başlıqlı 11-ci maddəsində deyilir: "2. Hər bir Tərəf ailə üzvlərinin axtarılması və ya uşağın rifahının və təhlükəsizliyinin təmin olunması üçün lazım olan hallar istisna olmaqla, uşaq alveri qurbanının şəxsiyyətinin və ya onun şəxsiyyətini müəyyənləşdirməyə imkan verən məlumatların kütləvi informasiya və digər vasitələrlə aşkarlanmasına və yayılmasına yol verilməməsini təmin etmək üçün tədbirlər görməlidir". Dövlətlər, uşaq qurbanların təhlükəsizliyini və onların ailələrinin təhlükəsizliyini təmin etmək məqsədilə, onların şəxsi həyatını və şəxsiyyətini qorumaq üçün bütün zəruri tədbirləri görməlidirlər.

Məlumatların mühafizəsi AŞ Konvensiyasının "Şəxsi həyatın mühafizəsi" başlıqlı 11-ci maddəsində deyilir: "Hər bir Tərəf insan alveri qurbanının şəxsiyyətini və şəxsi həyatını mühafizə etməlidir. Onlar barəsində olan şəxsi məlumatlar Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında Konvensiyanın (AMS № 108) şərtlərinə uyğun qaydada saxlanılmalı və istifadə edilməlidir". İnsan alverinin qurbanları ilə işləyən bütün qurumlar və təşkilatlar qurbanların şəxsi həyatlarını və şəxsiyyətlərini qorumalıdırlar. Qurbanın şəxsi məlumatları müvafiq beynəlxalq hüquqi sənədlərdə təsbit edilmiş şərtlərə uyğun olaraq saxlanılmalı və istifadə edilməlidir. Polisin məlumatlarında, xüsusən də digər iştirakçılara yayımlandığı təqdirdə, konfidensiallıq nəzərə alınmalıdır.

Hüquqi yardım insan alverinin qurbanları hüquqi xidmətlərdən yaralanmaq hüququna, o cümlədən öz hüquqları, hüquq müdafiə vasitələri və onlar üçün mövcud olan seçimlər barədə informasiya almaq hüququna malik olmalıdırlar.Hüquqi yardım QHT-lərdən, vətəndaş cəmiyyətindən və ya özəl sektordan olan müstəqil vəkillər tərəfindən göstərilə bilər. İnsan alverinin qurbanlarına hüquqi yardımın göstərilməsi onlara ədalət mühakiməsinə çıxış imkanı verir, beləliklə də, onların öz hüquqları haqqında məlumatlı olmasını və onları həm dil, həm də hüquqi baxımdan başa düşmələrini və əlavə informasiya vermələrini və proseslərdə iştirak etmələrini təmin edir. BMT-nin İnsan Alverinə dair Protokolunun "İnsan alveri qurbanlarının müdafiəsi" başlıqlı 6.3-cü maddəsində deyilir: "3. Hər bir İştirakçı dövlət insan alveri qurbanlarının fiziki, psixoloji və sosial reabilitasiyasının təmin edilməsi üçün tədbirlərin həyata keçirilməsi mümkünlüyünü, o cümlədən lazım gəldikdə,qeyri-hökumət təşkilatları, digər müvafiq təşkilatlar və vətəndaş cəmiyyətinin digər elementləri ilə əməkdaşlıq edərək və xüsusilə də: (b) insan alveri qurbanlarına aydın olan dildə konsultativ yardımın və məlumatın, xüsusən də onların hüquqlarına dair yardımın və məlumatın təqdim edilməsini". AŞ Konvensiyasının 15(2)-ci maddəsində, iştirakçı-dövlətlərin, öz daxili qanunvericiliklərində bu qanunvericiyin şərtləri altında qurbanlar üçün hüquqi yardım və ödənişsiz hüquqi yardım hüququnu nəzərdə tutmaq öhdəliyi müəyyən edilir. Aİ-nin 2011/36/EU nömrəli Direktivində deyilir: "Üzv-dövlətlər, insan alveri qurbanlarının, ləngiməyə yol verilmədən hüquqi məsləhətlərin alınmasına və müvafiq ədalət mühakiməsi sistemində qurbanların oynadığı rola uyğun olaraq, hüquqi təmsilçiliyə çıxış imkanını, o cümlədən kompensasiya tələbetmə məqsədilə buna malik olmalarını təmin etməlidirlər. Qurban kifayət qədər maliyyə vəsaitlərinə malik olmadıqda, hüquqi məsləhətlərin verilməsi və hüquqi təmsilçilik ödənişsiz olmalıdır". 3.14 İnformasiya təminatı Dövlətlər qurbanları informasiya ilə təmin etmək və onlara öz fikirlərini və maraqlarını bildirmək imkanını vermək öhdəliyini daşıyırlar. Qanunvericilik orqanları hakimlərin, heç bir zəmində, hüquqların müdafiəsinə xələl gətirən məqamlardan başqa, informasiyanı rədd edə və ya iştirakı istisna edə bilməmələrini təmin edəcək müddəaları nəzərdən keçirə bilərlər. 139 BMT-nin İnsan Alverinə dair Protokolunun "İnsan alveri qurbanlarının müdafiəsi" başlıqlı 6.2-ci maddəsində deyilir: "2. Hər bir İştirakçı dövlət təmin edir ki, onun daxili hüquqi və ya inzibati sistemi insan alveri qurbanlarına lazım gəldikdə: a) müvafiq məhkəmə və inzibati araşdırma haqqında məlumatın təqdim edilməsinə; Beynəlxalq çərçivə - insan alverinin müxtəlif aspektləri üzrə cavab tədbirləri ilə bağlı qabaqcıl təcrübələr Bu Fəsildə insan alverinin qurbanlara təsiri və onların birbaşa fiziki və psixoloji ehtiyacları nəzərdən keçiriləcəkdir. Burada gender-in və mədəniyyətin təsiri və qurbanlara necə nəzarət olunduğu izah ediləcəkdir. Burada həmçinin qurbanlarla müsahibənin necə aparılmalı olduğu izah ediləcəkdir. İnsan alveri gizlədilmiş cinayətdir. Qurbanlar adətən öz hüquqlarını bilmirlər, dövlətin qanunlarını başa düşmürlər və onlara insan alverçiləri tərəfindən nəzarət olunur. Qurbanlar yardım istəməyə bilərlər, insan alverinə məruz qalmış vəziyyətdə olduqlarını başa düşməyə bilərlər və ya hakimiyyət orqanlarından çəkinmiş ola bilərlər. Nəzarət metodları İnsan alverinin müxtəlif istismar formaları vasitəsilə bu əməli törədənlər öz qurbanlarından mənfəət əldə edirlər. Lakin onlar qurbanların istismar şəraitində qalmasını təmin etməli olurlar. Buna insan alverçisinin davamlı nəzarətə malik olmasını və qurbanın istismar olunmuş vəziyyətdə qalmasını təmin edən müxtəlif nəzarət metodları vasitəsilə nail olunur. Nəzarət bir çox müxtəlif, müəyyən qədər zoraki mexanizmlər vasitəsilə həyata keçirilir. Hər bir mexanizm ayrı-ayrılıqda istifadə edilə bilər, lakin əksər hallarda, qurbanı həqiqi və ya psixoloji əsirlikdə saxlama şəraitini yaratmaq üçün onlardan bir yerdə istifadə edilir. Nəzarət metodlarından insan alveri prosesinin hər bir ayrıca ünsüründə istifadə edilə bilər və müxtəlif metodlardan düşünülərək istifadə edilir. İnsan alverinin qurbanlarının istismarın bir çox formalarına və zoraki nəzarətə məruz qalmaları ilə yanaşı, mənfəət əldəetmə vədi ilə insan alveri qurbanlarına nəzarət olunmasının mümkünlüyünü göstərmək vacibdir. Məsələn, fəhlələrə, gələcəkdə daha yaxşı məvacib, bundan başqa onların dövlətdə qalmasının leqallaşdırılması, onlara ailələrini öz yanlarına gətirməyə kömək etmə və ya digər mənfəətlər vəd oluna bilər. Qurbanlara, həmçinin onların öz hüquqları və təyinat ölkənin qanunları haqqında məlumatsız olmaları ilə nəzarət oluna bilər. Məsələn, bir çox qurbanlar əmindirlər ki, onların iş üçün icazələri, bu icazə olmadıqda, onları işəgötürənlərdən asılıdır. Prokurorlar və hakimlər, qurbanların istismar vəziyyətindən və bu əməli törədənlərin nəzarətin nə üçün çıxmamalarını bilmək üçün qurbanlara necə nəzarət olunduğunu başa düşməlidirlər. Bu, onlara həm də insan alveri qurbanlarını və insan alveri hallarını müəyyənləşdirməkdə və insan alveri vəziyyətinin reallıqlarını başa düşməkdə kömək edəcəkdir. Borc asılılığı qurbandan onun təyinat ölkəyə və ya regiona aparılmasına görə yaranmış borcu ödəmək tələb olunur.

**_Vahid Ömərov,_**
**_fəlsəfə üzrə fəlsəfə doktoru_**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# Səs

**14 fevral**

**Son səhifə**



## Türkiyədə bir varlı yoxsulların bütün borcunu ödədi...

Türkiyədə bir nəfər mağazaya borcu olan bütün yoxsulların borclarını ödəyib. SİA Türkiyə mətbuatına istinadən xəbər verir ki, Türkiyədə bir nəfər naməlum şəxs mağazalardan birinə daxil olaraq satıcıya borc kitabında qeyd olunan bütün yerli sakinlərin borclarını ödəmək istədiyini bildirib. Məlumatda qeyd olunur ki, 12,5 min türk lirəsi məbləğində olan vəsaiti, borcu ödədikdən sonra həmin şəxs borc qeydləri olan səhifələri cıraraq yandırıb çıxıb gedib. Satıcının dediyinə görə, bir çox sakin artıq heç bir borcu olmadığına heç inana bilmir.



## “Çelsi” Hakim Zieşi 44 milyon avroya transfer etdi

“Ayaks” futbolçusu Hakim Zieşin “Çelsi”yə transferini təsdiqləyib. Bu barədə Niderland təmsilçisi rəsmi saytı vasitəsi ilə məlumat yayıb. 26 yaşlı hücumçunun bu mövsümün sonadək Niderland klubunda qalacağı, iyul ayından “zadəganlar”a qoşulacağı bildirilib. “Çelsi”nin bu transfer üçün “Ayaks”a 44 milyon avro ödəyəcəyi bildirilib. Qeyd edək ki, H.Zieş bu mövsüm Niderland çempionatında 18 oyunda 6 qol vurub və 13 qolun ötürməsini verib.



## Dani Alveşin avtomobili oğurlanıb

“San Paulo”nun futbolçusu Dani Alveş xoşagəlməz hadisə ilə üzləşib. Qol.az Braziliya mətbuatına istinadən xəbər verir ki, 36 yaşlı futbolçunun avtomobili oğurlanıb. Hadisə San-Paulo şəhərinin Pineyros bölgəsində baş verib. Avtomobilini dayanacaqda saxlayan Alveş, geri qayıdarkən maşının yerində olmadığını görüb. Məsələ ilə bağlı araşdırma aparan yerli polis, oğruların duracağa nəzarət edən mühafizəçini təhdid edərək, Alveşin maşınını oğurladıqlarını bildirib. Polis hadisə ilə bağlı araşdırma aparır.

## Əvvələr satıcı idi, indi günə 1300 dollar qazanır

Əvvəllər Mc Donalds-da satıcı işləyən qız hazırda gününə 1300 dollar qazanır. Milli.Az xarici mətbuata istinadla xəbər verir ki, bir müddət əvvəl fəstfud şirkətində saatı 7 fund-sterlinqə işləyən qız hazırda modelliklə məşğuldur.

Tanya McDonnell adlı 23 yaşlı qız xarici görünüşünə görə bir anda Instagram fenomeninə çevrilib. Tanyanın Instagram fotolarını görən model şirkətlərindən biri ona yüksək məbləğli iş təklifi də edib. Dubayda və başqa ölkələrdə açıq-saçıq şəkillər çəkdirən Tanya hazırda gününə 1000 fund-sterlinqdən çox pul qazanır.



## İki qadın güləşçimiz Avropa çempionatının yarımfinalına yüksəlib

***İtaliyanın paytaxtı Romada güləş üzrə Avropa çempionatı davam edir. AZƏRTAC xəbər verir ki, çempionatın dördüncü günündə - fevralın 13-də qadınlardan ibarət yığmamızın son 4 üzvü mübarizəyə qoşulub.***

Millimizin üzvü Tatyana Varansova (53 kq) ilk görüşdə İspaniya təmsilçisi ilə üz-üzə gəlib. Mingəçevir güləş məktəbinin yetirməsi hesabda 2:5 geridə olsa da, əzmkarlıq nümayiş etdirərək yekunda qələbə qazanıb. Ancaq 1/8 finalda Hollandiya güləşçisi qarşısında aciz qalıb.

Alyona Kolesnik (57 kq) gözlənilmədən ilk mərhələdə Norveç təmsilçisinə vaxtından əvvəl uduzub. Mübarizəyə 1/4 finaldan qoşulan Elis Manolova (65 kq) startda dünya və ikiqat Avropa çempionu Petra Olliylə qarşılaşıb. Təmsilçimiz ötən il Buxarestdə olduğu analoji yarışda olduğu kimi, yenə titullu rəqibinə qalib gəlib. Tatyana Omelçenko (62 kq) təsnifat mərhələsində italyan güləşçiyə qalib gəlib. Yığmamızın üzvü daha sonra Macarıstan təmsilçisini üstələyərək adını yarımfinala yazdırıb.



## Estoniya minimum əməkhaqqı 584 avroya endi

***Avropa İttifaqının (Aİ) Statistika Bürosunun (Avrostat) məlumatına əsasən, Estoniya minimum aylıq əməkhaqqına görə Aİ ölkələri arasında sondan səkkizinci yerdə qərarlaşıb. AZƏRTAC xəbər verir ki, ölkədə minimum aylıq əməkhaqqı 584 avro təşkil edir.***

Estoniyadan daha aşağı minimum əməkhaqqı olan ölkələr aşğıdakılardır: Bolqarıstan (312 avro), Latviya (430 avro), Ruminiya (466 avro), Macarıstan (487 avro), Xorvatiya (546 avro), Çexiya (575 avro) və Slovakiya (580 avro). Müqayisə üçün qeyd edək ki, siyahıda qonşu Litva Estoniyanı geridə qoyub. Bu ölkədə minimum aylıq əməkhaqqı 607 avrodur.



## Qaçırılan avtomobil tapıldı

***Nəqliyyat vasitəsini qaçırmaqda şübhəli bilinən Abşeron rayon sakini R.Cəfərov saxlanılıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Yasamal RPİ-nin 27-ci Polis Bölməsinə müraciət edən Bakı şəhər sakini S.Musayev fevralın 10-da saat 1 radələrində Ş.Qurbanov küçəsindən “Daewoo” markalı avtomobilinin qaçırıldığını bildirib.***

Keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində avtomobil həmin gün B.Məcidov küçəsində tapılıb. Davam etdirilən tədbirlərlə nəqliyyat vasitəsini qaçırmaqda şübhəli bilinən Abşeron rayon sakini R.Cəfərov polis əməkdaşları tərəfindən saxlanılıb.



## Cəlilabad sakinindən silah götürülüb

Cəlilabad rayon sakini N.Fərəcovdan müvafiq sənədləri olmayan ov tüfəngi götürülüb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Cəlilabad RPŞ əməkdaşlarının əldə edilmiş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Çinar kənd sakini N.Fərəcovdan müvafiq sənədləri olmayan nömrəsi silinmiş “İJ-17” markalı ov tüfəngi aşkar edilərək götürülüb.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**